

## HEYDƏR ƏLİYEVİN ADI MÜSTƏQİL AZƏRBAYCANIN TARİXİNƏ QIZIL HƏRFLƏRLƏ YAZILIB

# QURTULUŞDAN QƏLƏBƏYƏ

Qurtuluş Günü ilə başlayan Zəfər yolumuz davam edir. Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan artıq dünyada qalib xalq, qalib dövlət olaraq anılır.

**Bu gün müstəqil və güclü Azərbaycan dedikdə ilk ağıla gələn tarix 15 İyun - Qurtuluş Günüdür. Məhz bu gün, Azərbaycanı bir çox bəlalardan, təhlükələrdən, məhv olmaqdan xilas etdi. Bu xilaskar missiyanın daşıyıcısı isə fenomenal şəxsiyyət, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev idi.**

**Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı xalqımızı və dövlətimizi vətəndaş müharibəsi təhlükəsindən, qardaş qırğınından xilas etdi. Özünün də vurğuladığı kimi, həyatını heçə sayaraq mərkəzi hakimiyyətə qarşı üsyan qaldıran silahlı dəstələrin hökmranlıq etdiyi Gəncəyə səfər edib, vəziyyətlə yerindəcə tanış oldu.**

SƏHİFƏ 4-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

14 İYUN ŞƏNBƏ 2025 № 22 (4223) Qiyməti - 60 qəpik www.kaspi.az






## “TEXNİKİ SƏHV”, YOXSA RƏSMİ MÖVQE?

Dünyanın istənilən paytaxtında Cənubi Qafqaza, Azərbaycana münasibətdə hansısa plan və niyyətlər ola bilər. Ancaq unudulmamalıdır ki, Azərbaycan da 30 il əvvəlin ölkəsi deyil.

SƏHİFƏ 3-də



## İNTERNETİMİZ DAHA SÜRƏTLİ OLACAQ

Vətəndaşların istifadə etdikləri dördüncü, beşinci və altıncı nəsil modem və routerlər də sürət artımını dəstəkləyir. Belə ki, həmin cihazlar müvafiq olaraq 600 Mbit/s, 3.5 Gbit/s və 9.6 Gbit/s sürəti ötürmə imkanına malikdir.

SƏHİFƏ 12-də



## “XOŞBƏXT GÜNLƏRİMİN XATİRƏSİ MƏNƏ YETƏRLİDİR...”

Arzu Bağırova: “Teatrın bütün divarları, əşyalar, oturacaqlar dəyişsə belə, mənə onu xatırladır. Hər an elə bilirəm ki, pərdə arxasından Hacı çıxacaq. Mənim bütün xatirələrim onunla bağlıdır. Bu xatirələr heç vaxt silinmir”.

SƏHİFƏ 8-9-da

## YAXIN ŞƏRQDƏ GƏRGİNLİK PİK HƏDDƏ YÜKSƏLDİ

# İRAN-İSRAİL MÜNAQİŞƏSİNDƏ YENİ MƏRHƏLƏ



Hücumlar nəticəsində İranın yüksəkrütbəli hərbçiləri və alimləri öldürülüb. İsrail bəyan edib ki, əməliyyatların məqsədi İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır. İran da qisas vəd edir.

### ƏMƏLİYYATIN DİQQƏT ÇƏKƏN DETALLARI

İsrail İrana zərbələr endirmək üçün 200 təyyarə cəlb edib, onlar 330-dan çox döyüş sursatı atıblar. “Times of Israel” xəbər verir ki, bu barədə HHQ-nin rəsmi nümayəndəsi Effi Defrin brifinqdə bildirib. Onun sözlərinə görə, zərbələr zamanı qırıcılar təxminən 100 hədəfə 330-dan çox döyüş sursatı atıblar.




### BAKI NARAHATLIĞINI İFADƏ EDİB

Baş verən gərginlik Azərbaycanda da diqqətlə izlənilir. Xarici İşlər Nazirliyi gərginliklə bağlı bəyanat yayıb. “Azərbaycan İsrailin İranda keçirdiyi hərbi əməliyyatlardan ciddi şəkildə narahatdır”, - bəyanatda bildirilir. Sənəddə vəziyyətin gərginləşdirilməsi qəti şəkildə pislənilib.

SƏHİFƏ 2-də



## SOSİAL MÜAVİNƏTLƏR ARTIRILIR

Prezident İlham Əliyevin fərman və sərəncamları ilə 2018-2025-ci illərdə dörd milyondan çox vətəndaşı əhatə edən beş sosial islahat paketi icra olunub. Bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 milyard manat təşkil edir.

SƏHİFƏ 10-da



## YERLİ AVTOMOBİLLƏRƏ MARAQ AZALIB

2025-ci ilin yanvar ayında yerli avtomobil istehsalında 42 faiz azalma müşahidə edilib. Ekspertlər bunun əsas səbəbini vətəndaşların yerli avtomobillərə olan marağının böyük olmamasında görürlər.

SƏHİFƏ 7-də



## SORAĞI UZAQLARDAN GƏLƏN QIZ

Nigar Mirzəliyeva bacarıqlı futbolçu olmaqla bərabər, həm də gözəlliyi ilə diqqət çəkir. Onun sosial şəbəkə hesablarında böyük izləyici kütləsi var. Hətta o, “Yuventus”un oyunçusu Alişa Lemanla müqayisə olunur.

SƏHİFƏ 16-da



### Kaliforniya Trampa qarşı

SƏHİFƏ 5-də



### Dövlət, ailə və cəmiyyətin birgə məsuliyyəti

SƏHİFƏ 6-da



### Yüz faiz qalxan parking qiymətləri

SƏHİFƏ 11-də



### Şaftalımız sərhədləri aşır

SƏHİFƏ 13-də



### “İspaniyanın ürəyi”ndən reportaj

SƏHİFƏ 15-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# İRAN-İSRAİL MÜNAQİŞƏSİNDƏ YENİ MƏRHƏLƏ



İsrailin hücumları nəticəsində İranın yüksək rütbəli hərbçiləri və nüvə alimləri öldürülüb. İsrail bəyan edib ki, hərbi əməliyyatların məqsədi İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır. Öz növbəsində İran da qisas vəd edir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İsrail İranda "Yüksələn aslan" hərbi əməliyyatına başladığını elan edib. Bu, iki ölkə arasında son vaxtlarda qeydə alınan üçüncü və ən böyük birbaşa hərbi toqquşma sayılır.

### ƏMƏLİYYATLAR DAVAM EDƏCƏK

İsrail ordusunun əməliyyatlarla bağlı məlumatında qeyd edilib ki, məqsəd İranın nüvə silahı təhlükəsini aradan qaldırmaqdır. "İranın bir neçə gün ərzində bir neçə bomba istehsal etmək üçün kifayət qədər zənginləşdirilmiş uranı var və bu qaçılmaz təhlükəyə qarşı tədbir görülməlidir", - məlumatda vurğulanıb.

İsrailin Baş naziri Benyamin Netanyahu bəyan edib ki, hərbi əməliyyat lazım olduğu ana qədər davam edəcək.

İsrailin Baş qərargah rəisi, general-leytenant Eyal Zamir tərəfindən edilən xəbərdarlıqda deyilir ki, İranın cavab zərbələri nəticəsində İsrail çox güman ki, itkilərlə üzləşəcək. O qeyd edib ki, İsrail ordusu ölkəni müdafiə etməyə hazırdır, lakin vətəndaşlar özlərinin və yaxınlarının təhlükəsizliyinin qayğısına qalmalı, təlimatlara qulaq asmalıdırlar.

### ƏMƏLİYYATIN DETALLARI

İsrail Hərbi Hava Qüvvələri İrana zərbələr endirmək üçün 200 təyyarə cəlb edib, onlar 330-dan çox döyüş sursatı atıblar. "Times of Israel" xəbər verir ki, bu barədə HHQ-nin rəsmi nümayəndəsi Effi Defrin brifinqdə bildirib. Onun sözlərinə görə, zərbələr zamanı qırıcılar təxminən 100 hədəfə 330-dan çox döyüş sursatı atıblar.

Nəticədə İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Baqiri və İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı general-mayor Hüseyn Salami, Seyid Əli Xameneinin müşaviri Əli Şəmxani həlak olublar. İsrailin İrana hücumu nəticəsində altı nüvə alimi də həyatını itirib.

"Israel National News"un məlumatına görə, İsrail İrana hücumu bir neçə il ərzində hazırlayıb və yüksək rütbəli hərbi məmurlar və alimlər haqqında ətraflı dosyelər toplayıb.

## İRAN RƏHBƏRLİYİ QİSAS VƏD EDİR

Bu hücumlar nəticəsində ciddi itkilər verən İran da İsrailə qarşı sərt bəyanatlar verib. "İsrail İrana zərbələr endirməklə özünü acılı və ağrılı taleyə məhkum edib", - İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei xalqa müraciətində bildirib. Onun sözlərinə görə, İsrail sərt şəkildə cəzalandırılacaq.

İran Prezidenti Məsud Pezeşkian da xalqa müraciətində cavablarının İsraili peşman edəcəyini vurğulayıb. Bu barədə "Tasnim" xəbər agentliyi məlumat yayıb. Onun sözlərinə görə, bütün beynəlxalq öhdəliklərə zidd olan bu hücum İsrailin mahiyyətini təsdiqləyir: "Əlbəttə, İran xalqı və ölkə rəhbərliyi susmayacaq, qanuni və güclü cavabı onları bu hərəkətinə peşman edəcək. İran dünya və regionda sülh, əmin-amanlıq üçün bütün səylərini göstərdiyi, sülhsevərlik istiqamətində uzunmüddətli danışıqlara və dünyaya etimad yaratmağa tam hazır olduğunu sübut etdiyi qədər hücuma cavab vermək və ölkənin bütövlüyünü müdafiə etmək üçün də qətiyyətlə hərəkət edəcək".



Bu arada, İran Baş Qərargah və İslam İnqilabı Keşikçiləri Korpusunun yeni rəhbərlərini təyin edib. Əbdülrəhim Musəvi Baş Qərargah rəisi, Məhəmməd Pakpur isə SEPAH-ın komandanı təyin edilib.

## BEYNƏLXALQ REAKSİYA

ABŞ Prezidenti Donald Tramp İsrailin İrana zərbə endirmək planlarını əvvəlcədən bildiyini, lakin ölkəsinin əməliyyatda iştirak etmədiyini vurğulayıb. Tramp deyib ki, İran cavab verərsə, ABŞ özünü və İsraili müdafiə edəcək.

Avropa İttifaqı Şurasının sədri Antoniu Koşta İsrail və İranı təmkinli olmağa çağırıb. O, bu barədə "X" sosial şəbəkəsindəki səhifəsində yazıb. "Mən Yaxın Şərqdə baş verən son hadisələrdən çox narahatam. Təhlükəli eskalasiyaya yol verilməməlidir, bu, bütün regionda sabitliyi pozur. Tərəfləri təmkinli olmağa və diplomatiyaya çağırıram", - o yazıb.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen isə "X" hesabında yazıb ki, Yaxın Şərqdə sabitliyin və qlobal təhlükəsizliyin təmin edilməsi üçün diplomatik həll heç vaxt olmadığı qədər vacibdir.

Pakistanın Baş naziri Şahbaz Şərif İsrailin İrana hücumunu pisləyib. O, hücumlar nəticəsində həlak olanlarla əlaqədar İrana başsağlığı verib. "Biz beynəlxalq ictimaiyyəti, BMT-ni regional və qlobal sülhü təhlükə altına ala biləcək gərginliyin daha da artmasının qarşısını almaq üçün təcili tədbirlər görməyə çağırırıq", - o bildirib.

## AZƏRBAYCAN XİN NARAHATLIĞINI İFADƏ EDİB

Baş verən gərginliklə bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi də bəyanat yayıb. "Azərbaycan İsrailin İranda keçirdiyi hərbi əməliyyatlardan ciddi şəkildə narahatdır", - bəyanatda bildirilir. Sənəddə vəziyyətin gərginləşdirilməsi qəti şəkildə pislənilib: "Tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırırıq. Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini xüsusi olaraq vurğulayırıq".

Bəyanatda həmçinin vurğulanıb ki, Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və müvafiq beynəlxalq mexanizmlər çərçivəsində səylərin davam etdirilməsi əhəmiyyət kəsb edir.



# “TEXNİKİ SƏHV”, YOXSA RƏSMİ MÖVQE?

Dünyanın istənilən paytaxtında Cənubi Qafqaza, Azərbaycana münasibətdə hansısa plan və niyyətlər ola bilər. Ancaq unudulmamalıdır ki, Azərbaycan da 30 il əvvəlin ölkəsi deyil.



RÜSTƏM QARAXANLI



Rusiya prezidentinin köməkçisi Vladimir Medinskinin ölkəsinin Ukraynada ilhaq etdiyi ərazilərlə Azərbaycanın Qarabağ bölgəsi arasında paralellər aparması narazılıq yaratdı. Onun Qarabağı “mübahisəli ərazi” kimi qələmə verməsini adi halda müxtəlif prizmalardan yozmaq olardı. Məsələn, Rusiya XİN-nin açıqlamasında olduğu kimi, “fikirləri kontekstdən çıxarılıb”. Ancaq həm Bakıda, həm də Moskvanın özündə hamı yaxşı anlayır ki, Medinski çapda məmurlar verdikləri bəyanatlarda nəyinsə kontekstdən çıxarılması üçün “əl yeri” qoymurlar. Rusiyada Medinskinin söylədiyi fikirləri “texniki səhv” də hesab edə bilərlər, “kontekstdən çıxarma” da. Bizə isə iki əsrlik tarixi yaddaşımız, ələlxüsus da son 30 ilin təcrübəsi başqa şey deyir.

### MEDİNSKİ KREMLİN HANSI QÜLLƏSİNİ TƏMSİL EDİR?

Moskvanın xarici siyasəti, ələlxüsus da postsovet məkanının dövlətlərinə münasibəti şərh olunarkən bəzi hallarda belə bir yanlış mənzərə formalaşdırılır ki, guya Rusiyanın hakim dairələrində sözügedən problemlərə dair fərqli mövqelər var. Siyasi ekspertlər tez-tez “Kremlin qüllələri” ifadəsindən istifadə edirlər. Bu ifadənin mənası belə bir anlama gəlir: hər hansı xarici siyasət probleminə Rusiya hökumətinin daxilində müxtəlif yanaşmalar var. Məsələn, vaxtilə deyilirdi ki, indi Bakıda mühakimə olunan Ruben Vardanyanı Qarabağa Moskvadakı “müəyyən qüvvələr” ezam ediblər və bu, Kremlin rəsmi siyasətinə aid olmayan məsələdir. Nə qədər inandırıcıdır? Hər halda sonrakı hadisələr göstərdi ki, bu, olduqca yanlış qənaətdir və bu, Rusiyanın İkinci Qarabağ savaşından sonra yaranmış yeni reallıqlardakı siyasətinin tərkib hissəsidir. Bölgədəki mövcudluğu qoruyub saxlamaq üçün Rusiya “sülhməramlı” kontingentinin missiyası nədən ibarət idisə, Vardanyanın da qarşısına qoyulmuş vəzifə onun eynisi idi. Bu baxımdan, Medinskini də bu “qüllə”lərdən birinin təmsilçisi kimi təqdim etmək inandırıcı deyil və hətta mənasızdır.



## Ermənilərdən çox erməni olan bəzi Rusiya məmurları

Medinskinin “kontekstdən çıxarılan” fikirləri son yarım il ərzində Moskvanın Azərbaycana münasibətdə sərgilədiyi siyasət müstəvisində xüsusilə aqressiv təəssürat yaradır. Azərbaycana məxsus sərnişin təyyarəsinin vurulması, günahkarların yaxşı məlum olmasına baxmayaraq, hələ də cəzalandırılmamaları, kompensasiyanın ödənilməməsi belə demək mümkündürsə, mövcud gərginliyin əsas trendləridir. Ancaq vəziyyətə bir qədər dərindən baxanda aydın görünür ki, Medinskinin söylədikləri yalnız münasibətlərdəki son sərinlikdən irəli gəlmir.

Prezident köməkçisinin Qarabağı “mübahisəli ərazi” kimi təqdim etməsi Moskvada Azərbaycanın torpaq bütövlüyünə münasibətdə mövcud olan kursun göstəricisidir. Unutmayaq ki, Rusiya rəsmiləri indinin özündə də sülhməramlıların Qarabağı tərk etməsini, o cümlədən Ermənistana lazımı xarici siyasət dəstəyinin göstərilməməsini (əslində, göstərə bilməməsini) İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə izah edirlər. Yəni özünüz Qarabağı Azərbaycanın ərazisi kimi tanımısınız, biz nə edə bilərdik?!

İndi Medinski və onun kimilərinin zaman-zaman belə qıcıq doğuran bəyanatlar səsləndirmələri həmin ümumi yanaşmanın detallarıdır ki, tələskənlikdən, yaxud elə planlı şəkildə ictimailəşdirilir. Bu onun göstəricisidir ki, Rusiyanın Qarabağı əldən verməsinin həzm edilməməsinin nəzəri tərəfləri üzərində iş gedir, praktiki məsələlər isə gələcək mərhələlərə saxlanılır. Ancaq hərdən büruzə də verilir. Məsələn, bir neçə ay bundan öncə Moskva Dövlət Universitetində yeni “Qafqazşünaslıq” kursları başlayıb. Belə baxanda, qeyri-adi heç nə yoxdur. Ancaq kursda əsas istiqamətin “ermənişünaslıq” olduğunu nəzərə alsaq, müəyyən nəticələrə gələ bilərik. Bu o deməkdir ki, Moskvada nəzəri platformada Qafqaza münasibətdə istinad yenə də ermənilərə və Ermənistana edilir. Siyasət faktiki olaraq heç bir dəyişikliyə uğramayıb, hazırkı reallığa situativ mərhələ kimi baxılır ki, Medinskinin bəyanatı da məhz bu prizmadan şərh edilməlidir.

## Azərbaycan müstəqil geosiyasi aktordur

Təbii ki, Moskva kimi dünyanın istənilən paytaxtında Qafqaza, Azərbaycana münasibətdə hansısa plan və niyyətlər ola bilər. Ancaq unudulmamalıdır ki, Azərbaycan da 30 il əvvəlin ölkəsi deyil. Bu gün Azərbaycanın bərpa edilmiş sərhədləri və suverenliyi, qalib ordusu və şaxələnmiş xarici siyasəti, müttəfiqləri, qardaş Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi var. Azərbaycan formalaşmış, özünü dünya arenasında təsdiqləmiş müstəqil geosiyasi aktordur. Rəsmi Bakının bu statusunu möhkəmləndirən faktorlardan ən vacibi onun qonşuları və müttəfiqləri ilə mövcud olan və sənədlərlə təsdiqlənən sabit münasibətləridir.

# QURTULUŞDAN QƏLƏBƏYƏ

**Qurtuluş Günü ilə başlayan Zəfər yolumuz davam edir. Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan artıq dünyada qalib xalq, qalib dövlət olaraq anılır.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bu gün müstəqil və güclü Azərbaycan dedikdə ilk ağıla gələn tarix 15 İyun - Qurtuluş Günüdür. Məhz bu gün, Azərbaycanı bir çox bəlalardan, təhlükələrdən, məhv olmaqdan xilas etdi. Bu xilaskar missiyanın daşıyıcısı isə fenomenal şəxsiyyət, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev idi.

### ULU ÖNDƏRİN SƏLƏFLƏRİNDƏN ALDIĞI "MİRAS"

1993-cü ilin 15 iyun tarixi xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin adı müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı. Həmin dövrün mənzərəsini qısa olaraq təsvir etsək görərik ki, ortada ümidsiz xalq və məhvə doğru sürüklənən bir dövlət vardı. Ulu Öndərin sələflərindən aldığı "miras" məhz bu idi. Onun qarşısında çox çətin missiya - adı tarixin qaranlıq səhifələrinə yazılmaq üzrə olan Azərbaycanın xilası vəzifəsi dayanırdı.

### VƏTƏNDAŞ MÜHARİBƏSİ, QARDAŞ QIRĞINI TƏHLÜKƏSİ

Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı xalqımızı və dövlətimizi vətəndaş müharibəsi təhlükəsindən, qardaş qırğınından xilas etdi. Özünün də vurğuladığı kimi, həyatını heçə sayaraq mərkəzi hakimiyyətə qarşı üsyan qaldıran silahlı dəstələrin hökmranlıq etdiyi Gəncəyə səfər edib, vəziyyətlə yerindəcə tanış oldu. O vaxt hadisələrin bundan sonrakı axarını nəzarət altına almaq iqtidarında olan yeganə şəxs məhz Ulu Öndər idi. Onun bu addımları artıq bütün ümidlərini itirmiş xalqın sabaha olan inamını yenidən oyatdı. Güclü, müstəqil Azərbaycan quruculuğu prosesinin ilk qığılcımları məhz 1993-cü ilin iyun hadisələrində Ulu Öndərin yorulmaz, qətiyyətli, uzaqgörən fəaliyyəti sayəsində görünməyə başladı.



### SEPARATİZMƏ SON QOYULDU

Heydər Əliyev həm də Azərbaycanı bir dövlət olaraq parçalanmaqdan xilas etdi. Şimalda, cənubda baş qaldıran separatçı ocaqlar ağılla, məntiqlə, dahiyanə siyasi gedişlərlə söndürüldü. Müxtəlif xarici dövlətlərin kəşfiyyat orqanlarının bu istiqamətdəki planlarının qarşısı qətiyyətlə alındı.

## İCTİMAİ-SİYASİ SABİTLİK BƏRPA EDİLDİ






Ulu Öndər 1994-cü ildə Ermənistanla atəşkəs haqqında sazişə nail olmaqla yeni ərazi itkilərinin, Azərbaycan oğullarının həyatına son qoyan qanlı toqquşmaların önünə keçdi. Bu atəşkəs sazişi Azərbaycan dövlətinin öz gücünü, imkanlarını toparlaması, sabah gələcək Zəfərə aparan yolun təməllərinin atılması, inkişafa, rifaha, açılan yaraların sağalmasına hesablanan tədbirlərin həyata keçirilməsinə zəmin yaratdı. Azərbaycan adı bu tarixdən sonra dünyada daha çox eşidildi. Azərbaycan həqiqətləri məhz bu tarixdən sonra beynəlxalq aləmdə daha çox səsləndirilməyə başladı.

### MÜSTƏQİLLİYİMİZİN QARANTI

Ulu Öndərin hakimiyyətə qayıdışı Azərbaycanı iqtisadi, sosial, mədəni və mənəvi cəhətdən məhv olmaqdan da xilas etdi. Aparılan gərgin danışıqlar, yürüdülən siyasət bizlərin 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasına şahidlik etməyimizə vəsilə oldu. Dünyanın aparıcı dövlətlərini təmsil edən transmilli enerji şirkətlərinin imza atdığı bu müqavilə həm Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin zəmanətinə çevrildi, həm də gələcək iqtisadi və sosial inkişafın əsasını qoydu. Ölkədə hiperinflyasiyanın, çörək böhranının, ərzaq çatışmazlığının qarşısı alındı.

## BALANSLI XARİCİ SİYASƏTİN ƏSASI QOYULDU

Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik, idarəçilik təcrübəsi həmin dövr üçün olduqca həssas bir bölgədə yerləşən müstəqil Azərbaycanın ayaqda qalmasının əsas səbəblərindən biri idi. Şimalda, cənubda müstəqilliyimizi həzm edə bilməyən qonşuların əhatəsində qalan, bir tərəfdən də Ermənistanın işğalı ilə mübarizə aparan Azərbaycan məhz Heydər Əliyevin fenomenal siyasəti nəticəsində varlığını qorudu. Müstəqilliyimiz hamı və hər kəs tərəfindən qəbul edildi. Ermənistan istisna olmaqla, bütün qonşularımızla dövlətlərarası münasibətlər bərpa olundu, beləliklə balanslı xarici siyasət kursunun əsası qoyuldu.

Ulu Öndərin Azərbaycanın ilk Konstitusiyasının qəbulu, ana dili, milli mətbuat, mədəniyyət, təhsil, səhiyyə, ordu quruculuğu, beynəlxalq təşkilatlarla əməkdaşlıq, bir milyondan artıq qaçqın və məcburi köçkünün üzləşdiyi problemlərin həlli istiqamətində həyata keçirdiyi tədbirlər dövlətçilik məfhumunun hər bir sahəyə necə sirayət etdiyinin göstəricisi idi.

### BU GÜNÜN REALLIĞI

Qurtuluş Günü ilə başlayan Zəfər yolumuz davam edir. Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan artıq dünyada qalib xalq, qalib dövlət olaraq anılır. Ulu Öndər siyasətinin təməlini qoyduğu, işğala son qoyaraq ərazi bütövlüyümüzü bərpa edən Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yaradılan yeni reallıq məhz budur: güclü, müstəqil, ərazi bütövlüyü, sərhəd toxunulmazlığı, suverenliyi tam bərpa edilmiş qalib Azərbaycan dövləti.

# KALİFORNİYA TRAMPA QARŞI



Los-Ancelesdə baş verənlər ABŞ cəmiyyətindəki parçalanmanı daha da dərinləşdirəcək. Ayrı-ayrı ştatlar mərkəzi hakimiyyətə qarşı daha barışmaz mövqe tutacaqlar. Yəni baş verənlər ABŞ üçün ciddi nəticələrə səbəb ola bilər.



AZƏR NURİYEV

ABŞ-də vəziyyət "adi iğtişaşlar" çərçivəsindən kənara çıxıb və kriminal-siyasi rəng alıb. Los-Ancelesdə ABŞ Miqrasiya və Gömrük Mühafizə İdarəsinin (ICE) hərəkətlərinə qarşı kütləvi etirazlar başlayıb. ABŞ cəmiyyəti də baş verən hadisələrə münasibətdə ikiyə bölünüb. Əhalinin bir hissəsi Prezident Donald Trampı dəstəkləyir, digərləri isə onu xaos yaratmaqda ittiham edirlər.

### FEDERAL VƏ YERLİ HAKİMİYYƏT ARASINDA QARŞIDURMA

Los-Ancelesdəki yaşananlar faktiki olaraq federal və yerli hakimiyyət arasında qarşıdurmadır.

Kaliforniya ştatının rəhbərliyi Donald Trampı iğtişaşları təhrik etməkdə günahlandırıb və ona qarşı məhkəmə iddiası qaldırıb. Prezident və ştatın qubernatoru Kevin Nyusom sərt qarşıdurma vəziyyətindədir. Prezident Nyusomu iğtişaşlarla mübarizəyə maneçilik törətdiyinə görə həbslə hədələyib. Nyusom isə hər şeydə Trampı günahkar sayıb. Onun sözlərinə görə, məhz prezident Paramount şəhərində miqrasiya və gömrük polisinin (US Immigration and Customs Enforcement, ICE) sərt reydlərini başladıb. Nyusom iddia edir ki, ştat polisi iğtişaşlarla mübarizə apara bilərdi və Trampın Milli Qvardiya əsgərlərini cəlb etmək qərarı olmasaydı, onlar tezliklə sakitləşəcəkdi. Ştat hakimiyyətinin iddiasında Trampın qərarının ləğv edilməsi tələb olunur.

### MİQRASİYA XAOSUNU KİM TƏŞKİL ETDİ?

Ortada isə çoxlu suallar var. Miqrasiya xaosunu kim təşkil etdi? Onun həllinə və antimiqrasiya tədbirlərinin yaratdığı sosial narazılığa görə kim məsuliyyət daşımalıdır? Etirazların özü təbii reaksiyadır, yoxsa Trampın siyasi düşmənləri tərəfindən təhrik edilib, maliyyələşdirilib və yönləndirilib? Kənardan baxanda iki məqam aydın görünür. Bir tərəfdən, Tramp həqiqətən də radikal bəyanatlara və hərəkətlərə meyllidir. Digər tərəfdən, sistemli olmayan prezidentin həm ölkə daxilində, həm də xaricdə çoxlu düşmənlərinin olduğu fakt olaraq qalır. "Düşmən" də kifayət qədərdir - Demokratlar Partiyası, qlobalistlər, Trampın zərbə endirdiyi LGBT, USAİD, Milli Təhlükəsizlik Xidməti və Harvard Universiteti.

## Tramp təzyiqlərə boyun əymək fikrində deyil

Amma Tramp küçədən gələn təzyiqlərə boyun əymək fikrində deyil. Məsələn, Los-Ancelesdə Milli Qvardiya və dəniz piyadaları yerləşdirib. "The Washington Post"un məlumatına görə, hazırda gərginlik zonasında 4800 hərbçi var ki, bu da ABŞ-nin Suriya və İraqdakı kontingentindən çoxdur.

Ola bilsin ki, Tramp heç bir qanunu pozmayıb, amma yazılmamış ənənə dəqiq pozulub. Ştat hakimiyyətinin razılığı olmadan Milli Qvardiya bölmələrinin cəlb edilməsi ABŞ üçün çox qeyri-adidir. Sonuncu dəfə belə hal 1965-ci ildə olmuşdu. O zaman Prezident Lindon Conson Alabama Milli Qvardiyasına Martin Lüter Kinqin başçılıq etdiyi qaradərililərin hüquqlarının müdafiəçilərinin yürüşünü qorumağı tapşırmışdı. İndi isə vəziyyət prinsipial olaraq fərqlidir.



Donald Tramp

İrqçilikdə Trampı və ICE-i ittiham edirlər.

### AKSİYALARIN SİYASİ HƏDƏFLƏRİ

İndiki olayların 60 il əvvəlkindən daha bir fərq var. Nə Conson, nə də onun adamları həmin vaxt irqçi qubernatoru həbsxana ilə hədələməmişdilər. İndi isə Milli Qvardiyaya müqavimət göstərildiyi təqdirdə Nyusom həbslə təhdid edilir. Bu vədi, daha doğrusu, hədəni Trampa çox yaxın olan şəxslərdən biri Tom Homan səsləndirib.

Beləliklə, Tramp 2020-ci ildə olduğu kimi, irqi çalarlı iğtişaşlara eyni reaksiyanı göstərir. Bu reaksiya həmin vaxt Demokratlar Partiyasının sol qanadına öz populyarlığını artırmaq üçün imkan yaratdı. Görünür, baxışlarına görə mərkəzçi olan Nyusom da eyni taktikadan istifadə etmək niyyətindədir. O, 2028-ci il seçkilərində demokratlardan prezidentliyə namizəd olmaq istədiyini gizlətmir. Donald Trampın sərt antimiqrasiya tədbirlərini həyata keçirmək cəhdlərindən sonra Kaliforniyada baş verən iğtişaşlar Demokratlar Partiyasına indi də sərf edir. Baş verənlər demokratlara Trampa qarşı etirazlara rəhbərlik edə biləcək populyar lider verə bilər.

### SON İLLƏRİN ƏN GƏRGİN DAXİLİ BÖHRANI

Müşahidəçilər hesab edirlər ki, baş verənlər ABŞ cəmiyyətindəki parçalanmanı daha da dərinləşdirəcək. Ayrı-ayrı ştatlar mərkəzi hakimiyyətə qarşı daha barışmaz mövqe tutacaqlar. Yəni ABŞ üçün bu, ciddi nəticələri olan bir hekayədir.

Los-Ancelesdə miqrantların etiraz aksiyaları başqa ştatlara da sıçrayıb. Vaşinqton ştatının Sietl şəhərinin mərkəzindəki miqrasiya məhkəməsi qarşısında aksiyada deportasiyanın dayandırılmasına dair şüarlar səsləndirilib. Daha sonra Ostində aksiya təşkil edilib. Texas qubernatoru Qreq Ebbot sosial mediada Ostin şəhərində ondan çox etirazçının həbs edildiyini yazıb. Dallasda yüzlərlə nümayişçi bir neçə saat ərzində şəhər körpüsündə mitinq üçün toplaşıb. Həmçinin miqrantların Nyu-York, Çikaqo, Vaşinqton, Atlanta kimi böyük şəhərlərdə aksiyaları planlaşdırılır. Bir sözlə, Birləşmiş Ştatlar son onilliyin ən gərgin daxili böhranı ilə üz-üzə qalıb.



Kevin Nyusom

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# DÖVLƏT, AİLƏ VƏ CƏMİYYƏTİN BİRGƏ MƏSULİYYƏTİ



**Ölkəmizdə uşaqların 75 faizi gündəlik internetdən istifadə edir. Məlum olub ki, 67 faiz valideyn övladlarına internetdən istifadə edərkən nəzarət etmir, heç bir məhdudiyyət qoymur. Bu da ciddi fəsadlara yol açır.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İnternet böyüklər kimi uşaqların, yeniyetmələrin də həyatına ciddi şəkildə təsir edir. Uşaqlar artıq rəqəmsal dünyada böyüyür, onların istənilən resursa əlçatanlığı internet vasitəsilə təmin olunur. Maraqlıdır, valideynlər övladlarını kibermühitdə müdafiə edə bilirlərmi?

Araşdırmalar göstərir ki, dünyada uşaqlar bir çox hallarda internetdə aldadılır, zorakılığa məruz qalır, texniki və sosial-psixoloji təhdidlərlə üzləşirlər. Bu da onların psixoloji durumuna təsir edir.

### "67 FAİZ VALİDEYN ÖVLADLARINA NƏZARƏT ETMİR"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi uşaqlar arasında internetdən istifadə səviyyəsinin ölçülməsi məqsədilə aparılan araşdırmaya dair maraqlı hesabat təqdim edib. Belə ki, Bakı, Ağdam, Göygöl, Daşkəsən, Bərdə, Naxçıvan, Qazax, Salyan, Gəncə, Lənkəran, Qəbələ şəhər və rayonlarında yaşayan respondentlərin iştirakı ilə internetdən istifadənin səviyyəsinin ölçülməsinə dair oflayn və onlayn formada sorğu keçirilib. Hesabatda qeyd edilib ki, ölkəmizdə uşaqların 75 faizi gündəlik internetdən istifadə edir. Sorğuya əsasən, məlum olub ki, 67 faiz valideyn övladlarına internetdən istifadə edərkən nəzarət etmir, heç bir məhdudiyyət qoymur.

### "ZƏRƏRLİ KONTENTLƏRLƏ RASTLAŞMA FAİZİ YÜKSƏKDİR"

Dövlət Komitəsinin şöbə müdiri Elgün Səfərov deyir ki, statistik məlumatlara görə, internetdən istifadə edən uşaqların 72 faizi heç olmasa həyatında bir dəfə təhdidlərə məruz qalır: "Hazırda uşaqların internetə çıxışı iki yaşından başlayır. Çünki valideynlər övladlarını qidalandırmaq üçün planşetlərdən, telefonlardan istifadə edirlər. Bu, həm də mənəvi qidanın dəyişməsi deməkdir. Üstəlik xarici dillərdə olan məhsullardan istifadə edilir. Azərbaycan dilində hazırlanan, uşaqlara izlədilən materiallar azlıq təşkil edir. Bu gün 6-18 yaş arası istifadəçilərin 45 faizdən çoxu gündə beş saat internetdən istifadə edir. 67 faiz uşağın internetdə nəzarətsiz qalması məyusedici statistik göstərici kimi də qiymətləndirilə bilər. Çünki valideynlərin rəqəmsal media savadlılığı yüksək səviyyədə olmadığı üçün bundan narahat deyillər və risk görmürlər".

Araşdırmalar göstərir ki, valideyn güvənsizliyi uşaqları "deepweb", "darkweb" və digər zərərli kontentlər (təcavüz, bulinq, qumar, şantaj, şəxsi həyat paylaşımları və s.) qarşısında aciz qoyur və çox vaxt valideynlər bundan problem yarandıqdan sonra xəbərdar olurlar. Azərbaycanda internet resurslarına giriş çox sərbəstdir və zərərli kontentlərlə rastlaşma faizi yüksəkdir.



Kəmalə Aşumova

## "Uşaqlarda aqressivlik artır"

"Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri Kəmalə Aşumova deyir ki, Uşaq Qaynar Xətt xidməti olaraq birbaşa ailələr və uşaqlarla bağlı kibermühitin yaratdığı problemlərlə tez-tez üzləşirlər: "Təəssüf ki, 13-18 yaş uşaqlar arasında kiberzorakılıq, yaşıdları və kənar şəxslər tərəfindən təhqir, toxunma, təzyiq, hər hansı bir məlumatların alınması, şantaj kimi məsələlər var. Bəzən adi bir mövzu ilə bağlı axtarış zamanı və ya "YouTube"da hər hansı videoya baxarkən qarşılarına zorakılıq, ədəbsiz ifadələr, pornoqrafik məzmun və ya yaşa uyğun olmayan digər materiallar çıxır. Bu, onların psixoloji inkişafına mənfi təsir göstərir. Digər təhlükələrə isə onlayn fırıldaqçılıq, şəxsi məlumatların istismarı və onlayn cinsi zorakılıq halları daxildir. Bəzi hallarda uşaqların məlumatları ələ keçirilib, sonradan manipulyasiya və ya təhdid üçün istifadə oluna bilər. İnternet oyunlarına həddindən artıq aludəçilik də ayrıca problemdir. Bu, həm fiziki sağlamlığa, həm də zehni vəziyyətə zərbə vurur. Uşaqlarda aqressivlik artır, diqqət dağılır və nəticədə təhsil prosesinə maraq azalır".

## Həm maddi, həm də mənəvi zərər

Mütəxəssis bildirir ki, bu kimi faktorlar yekunda uşağın akademik performansının aşağı düşməsinə və sosial bacarıqlarının zəifləməsinə gətirib çıxarır: "Buna görə də valideynlərin və müəllimlərin bu sahədə maarifləndirilməsi və nəzarət mexanizmlərinin gücləndirilməsi olduqca vacibdir. Oyunların mənəvi zərərləri ilə yanaşı, maliyyə yönümlü təhlükəli tərəfləri də var. Belə ki, bir çox oyunlarda qəhrəmanın görünüşünü dəyişmək, əlavə imkanlar əldə etmək və ya xal toplamaq üçün ödənişlər tələb olunur. Bu ödənişlər əsasən bank kartları vasitəsilə edilir və həmin kartlar çox vaxt valideynlərə məxsus olur. Uşaqlar bəzən valideynlərindən icazəsiz bu kartlardan istifadə edir və oyun içi alış-verişlərə ciddi məbləğlər xərcləyirlər. Belə hallar artıq real həyatda da yaşanıb. Bu səbəbdən valideyn nəzarəti və maarifləndirmə vacibdir".

K.Aşumova vurğulayır ki, burada həm qaynar xətlərin yaradılması, həm də uşaqlarla birbaşa işləyən dövlət qurumlarının - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və ona bağlı agentliklər, kibertəhlükəsizliklə bağlı qurumlar, Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, xüsusilə də məktəblərin - aktiv şəkildə rol alması vacibdir: "Bu qurumlar profilaktik və araşdırma yönümlü tədbirlər həyata keçirməli, qarşılıqlı əməkdaşlıqla problemi erkən mərhələdə həll etməyə çalışmalıdırlar. Digər tərəfdən, bizim də birbaşa çalışdığımız sahələrdə uşaqlara müsbət töhfə verə bilmək üçün müəyyən təşəbbüslər həyata keçirmək mümkündür. Məsələn, rəqəmsal savadlılığın artırılması üçün müvafiq dərslərin təşkili, qeyri-formal təhsilin gücləndirilməsi, QHT-lərin və dövlət qurumlarının bu mövzuda layihələrə dəstək verməsi, məktəblərdə bu məsələlərin dərindən öyrənilməsinin təşviqi, sadəcə savadlılıq deyil, riskləri anlama və onlara qarşı tədbirlər görmək bacarığının da aşılanması vacibdir. Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması dövlət, ailə və cəmiyyətin birgə məsuliyyətidir".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# YERLİ AVTOMOBİLLƏRƏ MARAQ AZALIB

2025-ci ilin yanvar ayında yerli avtomobil istehsalında 42 faiz azalma müşahidə edilib. Ekspertlər bunun əsas səbəbini vətəndaşların yerli avtomobillərə marağının böyük olmamasında görürlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



**Yerli avtomobil istehsalında 42,1% azalma**

Avtomobil sənayesi hər bir ölkənin iqtisadi inkişafında mühüm rol oynayan sahələrdəndir. Bu sektor nəqliyyat vasitələrinin istehsalı və satışı ilə yanaşı, məşğulluq səviyyəsinə, daxili bazarın inkişafına və texnoloji yeniliklərin tətbiqinə də təsir göstərir. Azərbaycanda da avtomobil sənayesinin inkişaf etdirilməsi istiqamətində son illərdə müxtəlif addımlar atılıb, yerli istehsalın genişləndirilməsi üçün bir sıra layihələr həyata keçirilib. Bununla belə, 2025-ci ilin yanvar ayına aid göstəricilər avtomobil istehsalında əvvəlki illə müqayisədə ciddi azalmanın müşahidə olunduğunu göstərir. Rəsmi statistik məlumatlara əsasən, 2025-ci ilin ilk ayında ölkədə cəmi 235 ədəd minik avtomobili istehsal edilib ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 171 ədəd və ya 42,1 faiz azalma deməkdir. Bundan əlavə, fevral ayının əvvəlinə olan məlumata görə, yerli müəssisələrdə 141 ədəd avtomobil ehtiyatda qalıb. Bəs, görəsən, istehsalın birdən-birə 42 faiz azalmasını şərtləndirən səbəblər hansılardır? Bu sahədə inkişafa necə nail ola bilərik?

### “EHTİYAT HİSSƏLƏRİNİ XARİCDƏN ALIRIQ”

İqtisadçı-ekspert Günay Hüseynovanın sözlərinə görə, Azərbaycanda avtomobil istehsalı tələb və təklif amili əsasında formalaşır: “Gəncə, Neftçala, Hacıqabulda avtomobil istehsalı müəssisələri fəaliyyət göstərir. Yerli istehsala tələbatın azalmasının ilkin səbəbi onların ehtiyat hissələri, detalları ilə bağlıdır. Çünki xaricdən alınır. Normalda detallar da yerli istehsal olmalıdır. Avtomobil zavodlarımız istehsaldan daha çox yığma qurumudur. Xaricdən gətirilən hissələrin ölkədə yığılması baha olduğu üçün vətəndaş eyni qiymətə xarici istehsala üstünlük verir”.



Günay Hüseynova

**“Vətəndaşda maraq oyatmaq lazımdır”**

**Ekspert bildirir ki, xarici avtomobillər görünüş, keyfiyyət baxımından da vətəndaşa daha cəlbedici gəlir: “Tələb və təklif amili əsasında yerli minik avtomobili istehsalının statistik göstəriciləri də dəyişir”.**

**G.Hüseynova düşünür ki, yerli istehsala tələbi artırmaq üçün müəyyən addımlar atıla bilər: “Vətəndaşda maraq oyatmaq lazımdır. Bunun üçün bir sıra işlər görülməlidir. Məsələn, dövlət qurumlarındakı xidməti avtomobillər yerli istehsalla təmin olunarsa, sıravi vətəndaş da bu maşınlara maraq yaranar”.**

### “XARİCİ MODELLƏR HƏR İL YENİLƏNİR”

**Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov isə düşünür ki, yerli maşınlar xarici istehsala uduzur: “Statistik rəqəmlərə baxdıqda da görmək mümkündür ki, vətəndaşlarımız yerli minik avtomobillərinə daha az maraq göstərirlər. Bunun da müəyyən səbəbləri mövcuddur. Onlardan biri yerli istehsalın idxal edilən avtomobillərə uduzmasıdır. Yerli minik maşınlarının texniki parametrləri, yanacaq sərfiyyatı, komfortu idxal edilən avtomobillərdən geri qalır”.**

**A.Əsədovun fikrincə, bu mənzərə əvvəlki dövrlərdə də mövcud olub: “Ümumi götürsək, vətəndaşlar çox zaman xarici istehsal olan avtomobilləri daha üstün tutublar. Həmçinin xaricdə istehsal edilən nəqliyyat vasitələri dizayn olaraq hər il yenilənirlər. Bu, insanların onlara olan marağını daha da artır. Bu amil də istehsalımızın arxa planda qalmasına gətirib çıxarır. Beləliklə, yerli istehsalda ləngimə baş verir”.**



Aslan Əsədov

### “Xərci də çoxdur, qiyməti də...”

Ekspert qeyd edir ki, vətəndaşlar avtomobillərə daha yüksək məbləğ ödəmək istəmirlər: “Digər bir məqam yerli nəqliyyat vasitələrinin baha olmasıdır. Bu maşınları kreditlə və ya lizinq şərtlərilə daha yüksək qiymətə əldə edirlər. Bu da yerli istehsalı ləngidən, istehsalımızın azalmasına səbəb olan faktlardandır. Yerli istehsal dedikdə xarici ölkələrdən hissələrin gətirilməsi və burada birləşdirilib yığılması başa düşülür. Bu isə özü-özlüyündə kifayət qədər xərc tələb edir. Qeyd olunan məqamlar bir-biri ilə zəncirvari şəkildə bağlıdır”.

### “Yerli bazarı araşdırmalıyıq”

Müsahibimizin fikrincə, hər bir halda yerli avtomobil istehsalı davam edilməli və genişləndirilməlidir: “Tələbatın zəif olması o mənaya gəlməməlidir ki, biz ümumiyyətlə avtomobil istehsalını dayandırmalıyıq. Əksinə, istehsalı daha da artırmalıyıq. Rəqabətə davamlı avtomobillər istehsal etməliyik. Həmçinin yerli bazarı araşdırmalıyıq. İnsanların maraq dairələrini öyrənməliyik. Avtomobil istehsal edərkən baxmalıyıq ki, hansı modelləri almaq daha sərfəlidir. Bunları dəyişdirərək inkişafa nail ola bilərik”.

Ekspert deyir ki, istehsal üzərində çalışsaq, avtomobillərimizi xaricə də ixrac edə bilərik: “Digər nəzərə alınmalı məsələ qonşu ölkələrin avtomobil bazarına çıxış imkanlarımızın olmasıdır. İstehsalı inkişaf etdirərək, daha keyfiyyətli avtomobillər istehsal edərək, onları qonşu ölkələrə ixrac edə bilərik. Bu, ölkəmizin tanınması üçün də böyük fürsətdir”.

DOĞMALAR Kaspi 14 İYUN ŞƏNBƏ 2025 9

HACIBABA BAĞIROVUN HƏYAT YOLDAŞI ARZU BAĞIROVA MƏRHUM SƏNƏTKARLA BAĞLI XATİRƏLƏRİNİ "KASPİ"NİN "DOĞMALAR"INDA DANIŞIR



SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# "XOŞBƏXT GÜNLƏRİMİN XATİRƏSİ MƏNƏ YETƏRLİDİR..."

**Hacıbaba Bağırovun həyat yoldaşı Arzu Bağırova:** "Teatrın bütün divarları, əşyalar, oturacaqlar dəyişsə belə, mənə onu xatırladır. Hər an elə bilirəm ki, pərdə arxasından Hacı çıxacaq. Mənim bütün xatirələrim onunla bağlıdır. Bu xatirələr heç vaxt silinmir".



Unudulmaz sənətkar kimi yaddaşlara əbədi həkk olunmaq hər aktyora nəsib olan xoşbəxtlik deyil. Görkəmli aktyor Hacıbaba Bağırov bunu bacarmışdı. O, adını teatr və kino tariximizə öz istedad və zəhmətinin qüdrəti ilə yazdırmışdı.

Aktyorun doğum günü (12 iyun) ərəfəsində "Kaspi"nin "Doğmalar"ında həyat yoldaşı Arzu Bağırova ilə söhbətləşdik.

## "İŞ, TEATR ONUN ÜÇÜN BİRİNCİ İDİ"

**● Hacıbaba Bağırovla son müsahibəm Musiqili Komediya Teatrında - onun direktor və bədii rəhbər olduğu vaxta təsadüf etmişdi. Marağımı boğa bilməyib haqqınızda soruşdum. Xoşbəxt görünürdü...**

● (sözümü kəsir-T.M.) Görünmürdü, xoşbəxt idi...

**● Bu sözləri indiki kimi yadımdadır: "Hər gün pəncərədə dayanıb məni yola salır, maşına minməyincə pəncərədən çəkilmir..." Xatırlayırsınız o anları?**

● Xatırlayıram... Hər səhər dururdu, yeməyini yeyirdi, yola salırdım. Onda biz ikiotaqlı evdə yaşayırdıq. Balaca bir eyvanımız vardı, mətbəxə qatmışdıq. Sürücü düz blokun qabağında onu gözləyirdi. Hər dəfə maşına minəndə başını qaldırır, əl edirdi. Mən də əl etdikdən sonra yola düşürdü. Baxmayaraq ki, bir saat sonra biz yenə görüşürdük. O, müdir olduğuna görə hər gün işə tez gedirdi. Mən də sıravi işçi olduğuma görə gündüz 11-də gedirdim. Bir gün də hava çox yağışlı və soyuq idi. Onu yola saldım və çarpayıya uzandım. Bir də gördüm zəng edir: "Mən burdayam, gedim ya qalım?" Eyvana yaxınlaşdım, gördüm yuxarı baxır. Hər gün eyni proses idi... Teatr bizim ikinci evimiz idi. Hacı bazar günləri də işə gedirdi, çünki tamaşalar olurdu. Hətta həftənin birinci günləri - teatrın istirahət günü də gedirdi. O, çox dəqiq adam idi. Tamaşa başlamamışdan hər aktyor saat 5-də öz qrim otağında olurdu. Hacı da bu adəti pozmurdu. Lap ikinci hissədə oynasa belə, aktyorlardan qabaq qrim otağına gedib tamaşaya hazırlaşırdı. "Mən nümunə olmalıyam", - deyirdi. İş, teatr onun üçün birinci yerdə idi.

## "MƏN HEÇ KİMİN AİLƏSİNİ DAĞITMAMIŞAM"

**● Yadınızdadırmı, o vaxt sizinlə evlənəndə söz-söhbətlər səngimirdi. Sizin evlilik hekayəniz hamıya maraqlı idi. Onda sosial şəbəkələr bu qədər yayğın deyildi, amma ciddi mediada belə yazılırdı. Şəxsi həyata baş qoşmaq kimi çıxmasını istəməzdim, amma bəlkə illər keçəndən sonra danışasınız. Bu hekayə nədən başladı?**

● Biz kütlədən həmişə uzaq durmuşuq. Bu gün bloqerler, tik-tokerlər və başqaları tanınmaq istəyirlər. Hacının buna ehtiyacı yox idi. Biz hər şeydən uzaq qalırdıq. Bu gün də eləyəm. Reklamdan, tanınmaqdan uzağam. Bu, nə mənə, nə də övladıma lazımdır. Hacının həyatında çox az dostu vardı. Mənim də ətrafım geniş deyildi. Bu gün də elədir - ətrafımda anamdır, övladımdır... Heç kimlə maraqlanmıram. Hər insan həyatı bir dəfə yaşayır. Ətrafına zərər verməmək şərti ilə öz həyatıdır, necə istəyir elə yaşasın. Hacı ailə qurmağını heç kimdən gizlətmirdi, efirdə də çıxıb danışırdı. Yaş fərqimizin olduğunu deyirdi. Mənim üçün də kimsənin fikri önəmli deyildi. Önəmli olsaydı, ən azı özümdən 37 yaş böyük insanla ailə qurmazdım. Mən əsas öz xoşbəxtliyimi düşündüm. Fikirləşdim ki, özümə uyğun bir insan seçmişəm. Onunla bir yerdə olmaq çox xoş idi. Bir qadın xoşbəxtliyi üçün nə lazım idisə, mən onu Hacıda tapdım. Seçimimi düz etdim. Mən heç kimin ailəsini dağıtmamışam. Biz evlənəndə Hacı artıq üç il idi ki, rəsmi boşanmışdı. Öncə mənim üçün önəmli olan dini nikah idi, bunu etdik. Dünyaya halal övlad gətirmək önəmli idi. Amma insanların söz-söhbətindən uzaq olmaq üçün biz rəsmi nikah da bağladıq. Yoxsa bu rəsmiyyət mənim həyatımda heç nəyi dəyişmirdi. Bəziləri "rəsmi nikaha getdi ki, rəsmi xanımı olsun", - deyə bilərdi. Əgər söhbət bizə dövlət başçısı tərəfindən hədiyyə edilən ikiotaqlı mənzildən gedirdisə, sonradan bizə üçotaqlı mənzil də hədiyyə edildi. Biz heç rəsmən evli olmadığımız zaman Hacı ikiotaqlı mənzili mənə hədiyyə etmişdi. Bilirsiniz ki, ev hədiyyə olanda bölünən əmlak sayılmır. Bu gün mən Hacıdan sonra 20 ildir ki, yalnızam. Övladım və anamla yaşayıram. Elə isə sual edirəm: bir qadının problemləri, evinin yükü, övladının təhsili kimisə maraqlandırır? Bu gün mən yalnız qızım Şöləyə baxıb özümü xoşbəxt sayıram. Anamın sağlığı, yanımda olması da xoşbəxtliyimdir. Amma bir qadın xoşbəxtliyi... Mən yeddi il bir qadın kimi xoşbəxt oldum, bu gün o xoşbəxtlikdən çox uzağam. Özümü övladımın problemlərinə, təhsilinə həsr etmişəm. Hər günümə şükür edirəm! Yaşadığım xoşbəxt günlərimin xatirəsi mənə yetərlidir.

> *"Mənsiz heç qrim otağına da getmirdi. Xasiyyətimi bilirdi. Mən çox qısqanc olmuşam. Nə gizlədim, məndən çəkinirdi."*

## "MƏN HACININ İNSANLIĞINI SEVDİM"

**● Hacı bir aktyor kimi çox məşhur idi. Olsun ki, "Şirbalanın sərgüzəşti" kimi "sərgüzəştləri" də olmamış deyildi. Ad çəkməyəcəyəm, sənət dostlarından biri mənə onun haqqında belə demişdi: "Hacıbaba həyatda iki şeyin pərəstişkarı idi – yaxşı geyimin və evlənməyin. Hər gözəlin bir eybi olur, tez-tez evlənmək də onun eybi idi". Bu fikirlərin fərqində idiniz?**

● Hacı məndən sonra belə bir şey etsəydi, mənim üçün problem olardı. Mən bürc olaraq oxatanam və çox qısqancam. Hacı heç bir nöqsan buraxmamağa çalışırdı. Biz 24 saat bir yerdə idik. O, heç mobil telefonuna özü cavab vermirdi. Qısqanmağa bir səbəb yox idi. Yaşadığımız müddətdə mənsiz oynadığı tamaşası da yox idi. Mənsiz heç qrim otağına da getmirdi. Xasiyyətimi bilirdi. Mən çox qısqanc olmuşam. Nə gizlədim, məndən çəkinirdi. İşdə təbii ki, işçilərlə danışmalı idi. Düşünürəm ki, hər kişi bir xanımdan çəkinməlidir. Bu, ən azı bir hörmətdir. Bu hörmət olmasa, ailə ayaq üstdə durmaz. Mən həmişə deyirəm ki, ailə xoşbəxtliyi, sevgi təkcə pulla deyil. Bir baxın, ən çox boşanmalar imkanlı insanların arasındadır. Hacı imkanlı olmayıb. Biz onunla ailə quranda altı ay kirayədə yaşamışıq. Hacı hər dəfə evindən çıxanda yalnız pal-paltarını götürüb. O zaman Hacı sadəcə Xalq artisti idi, "Şöhrət" ordeni vardı. Bunlar da vərəsə olmur ki, mənə qalsın. Mən Hacının insanlığını sevdim. O, bir qadını necə ələ almağı bacarırdı. Bəlkə də bu, yaşla və ya həyat təcrübəsi ilə bağlı idi. Hacı çox erkən yaşlarında tanınmışdı. 28 yaşında "Ulduz"da oynamışdı. Şan-şöhrəti çox tez qazanmışdı. Ona görə xanımların damarını tutmağı bacarırdı. Mən onunla çox rahat idim, amma ayağımı bastalamamaq şərti ilə... Yalandan deyim ki, hər şeyə göz yumurdum, yox. Çox hökmlü xanımam. Əgər gənc bir xanım olaraq həyatımı ona bağlamışdımsa, o da bir kişi kimi ona dəyər verməli idi. Hacı özünə qarşı da çox diqqətli idi. O, geyiminə olduqca çox pul xərcləyirdi. Heç vaxt bununla bağlı ona "yox" demirdim. Fikirləşirdim: bir gün Hacı həyatda olmayanda özümə bağışlaya bilməzdim ki, o nəyisə istəyib, mən ona "yox" demişəm. İstədiyi həyatı ona bacardığım qədər yaşatmışam. O da məni ovcunun içində saxlayıb.

**● Kənardan müdaxilələr çox olurdu?**

● Ailəmizdə heç bir problem, söz-söhbət olmayıb. Kənardan müdaxilə çox böyük maneədir. Ancaq iki insan bir-biri üçün yaşayanda bu, onlara mane olmur. Hacı heç vaxt həyatımıza heç kimi buraxmayıb. Evimizin qapısından keçən insanlar çox az olub. Hacı incəsənət adamlarının evində olmasını sevmirdi. Və ya qohum-əqrəba çox gəlib-getsin, həyatımıza müdaxilə etsin... Bu xasiyyətini də çox bəyənirdim.

**● Bəlkə bəxtiniz onda gətirib ki, Hacının "mülayim", belə deyim, sizi əzizləyə biləcəyi vaxtına düşmüşünüz?**

● Yəqin (gülür – T.M.). Həmişə deyirdim ki, sənin görüb doymuş vaxtına düşmüşəm. O, ancaq ailə, rahatlıq istəyirdi. Həftədə bir dəfə restoranda yemək günümüz vardı. Qalan günlər dörd divarın arasından çıxmırdı. İş və ev...



Fotolar: Əjdər İbrahimov - Global Photostock

## "DÜNYASINI DƏYİŞMƏMİŞDƏN BİR GÜN ƏVVƏL DEDİ Kİ..."

**● Hacının vəfatından sonra həyatdan necə baş çıxardınız? Azyaşlı uşaqla sizə çətin olmadımı?**

● Qızım iki yaş üç aylıq idi. Hər şey o qədər birdən, gözlənilməz oldu ki... Hacı altı ay əvvəl bütün analizlərdən keçmişdi. Ona demişdilər ki, analizlərin cavabı gənc bir oğlanın analizləri kimidir. Nə Hacı buna hazırlıqlı idi, nə də mən... Hacı ən azından məni, övladını düşünəcəkdi. O, ailəyə çox bağlı idi. Amma öncədən heç nəyi düşünə bilmədi. Zaman olmadı. Dünyasını dəyişməmişdən bir gün əvvəl dedi ki, "Arzu, sənin məni istədiyini bilirdim, amma bu qədər istədiyini bilmirdim. Sənə söz verirəm: buradan çıxandan sonra sənin bu borcundan çıxmağa çalışacağam". Amma qismət belə gətirdi...

Hacının mənə olan sevgisinə, diqqətinə xəyanət etmədim. Onun ölümündən sonra da buna xəyanət kimi baxıram. Mən Hacının adına layiq həyat sürməyə çalışdım. Nə etdimsə, övladım üçün etdim. Təbii ki, çox çətin idi. Problemlər çox idi. Uşağa təhsil vermək də maddiyyat tələb edir. Düşünürəm ki, bir valideynin övladına verə biləcəyi ən böyük varislik onun təhsilidir. Qızımın təhsili üçün özümdən hər şeyi kəsdim. Qızım Ankarada Hacettepe Universitetinin siyasi bilimlər və idarəetmə fakültəsində oxuyur. Altı dil bilir. Rəssamdır. İki dəfə sərgisi keçirilib. Bu gün qızıma görə çox rahatam.



**● Qızınızın aktrisa olmağa heç həvəsi olmadı?**

● Yox... Düşündü ki, çətindir. Hacı onu uşaqlıqdan həkim görmək istəyirdi. Düzdür, qəbulu qazandıq. Hacettepe Universiteti ona həm tibbi, həm hüquqşünaslığı, həm də siyasi bilimlər fakültəsini təklif etdi. Bu, hər abituriyentə olunmayan təkliflərdir. Mən tibbi istəmədim, amma doğrusu, bu gün çox peşmanam. Siyasi bilimlər və idarəetmə ixtisası da yaxşıdır. Əsas odur ki, Bakıya qayıdandan sonra iş tapılsın.

## NOSTALJİ HİSSLƏR

**● Hacıbaba Bağırov "Muskomediya"nın gur-gur gurlayan vaxtlarında - teatra insan axını, kassada bilet növbələri, alqışların gur olan vaxtında rəhbərlik edirdi. Özü də səhnədə idi. Amma bu gün, məsələn mən "Bankir adaxlı"dan aldığım zövqü indi ala bilmirəm...**

● Bilirsinizmi, bu, nədən irəli gəlir? Biz sovet dövrünün uşaqlarıyıq. O zaman Nəsibə xanım, Hacıbaba, Səyavuş Aslan, Yaşar Nuri kimi aktyorlar vardı səhnədə. Daha çox nostalji hissləriniz olduğu üçün belədir. Teatr salonu yenə də tamaşaçılarla dolu olur.

**● İndi teatra daxil olanda hansı hissləri keçirirsiniz?**

● Teatrın bütün divarları, əşyalar, oturacaqlar dəyişsə belə, mənə onu xatırladır. Hər an elə bilirəm ki, pərdə arxasından Hacı çıxacaq. Mənim bütün xatirələrim onunla bağlıdır. Bu xatirələr heç vaxt silinmir. Hacı çox parfüm işlədirdi. Ətrinin iyi özündən sonra iki saat dəhlizdən çəkilmirdi. Aktyorlar bu qoxudan onun gəldiyini bilirdilər. Həyatda çox ciddi və ağır adam idi. Sözün əsl mənasında "şəxsiyyət" deyə bilərəm. Köhnə kişilərdən idi. Mən bu xüsusiyyətlərinə dəyər verib onunla ailə qurdum. Bu, təkcə Hacıya aid deyil, dünyanın bütün komikləri həyatda çox ciddi insanlar olub. Və çoxunun da son həyat yoldaşları özlərindən çox gənc olub. Bu da yəqin onların taleyi imiş...

## DAVAM EDƏN ƏNƏNƏ

**● İyunun 12-də Hacıbaba Bağırovun anadan olduğu gündür. Doğum və xatirə günlərini necə qeyd edirsiniz?**

● Hacının ölümündən sonra 17-18 ildir ki, bu ənənə davam edir: evdə yığışırıq. Hamı bilir ki, qapım açıqdır. Ad günü və xatirə günü yığışıb qəbri üstünə gedirik. 12 iyun - doğum günü və 4 oktyabr - xatirə günü bizim səhərimiz halva çalmaqla başlayır. Bir stəkan çay içib ruhunu yad edirik. Hacı xoşbəxt ailə başçısı idi. Elə bir gün yoxdur ki, mən ona rəhmət oxumayım...

# SOSİAL MÜAVİNƏTLƏR ARTIRILIR



**Prezident İlham Əliyevin fərman və sərəncamları ilə 2018-2025-ci illərdə dörd milyondan çox vətəndaşı əhatə edən beş sosial islahat paketi icra olunub. Bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 milyard manat təşkil edir.**

Vətəndaş rifahının təminatı, sosial müdafiə sisteminin gücləndirilməsi Prezident İlham Əliyevin siyasətinin əsas prioritet istiqamətlərindəndir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən növbəti sosial islahat paketi çərçivəsində müavinət və təqaüdlərin artırılması ilə bağlı son fərman bunun əyani təzahürüdür.

### İYULUN 1-DƏN ETİBARƏN...

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2025-ci ildə müavinət və təqaüdlərin artırılmasına dair təşkil edilən brifinq zamanı nazir müavini Rəşad Mustafayev bildirib ki, bu il iyulun 1-dən şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi və Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 600 manatdan 700 manata, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 500 manatdan 600 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 400 manatdan 500 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 330 manatdan 400 manata çatdırılır.

### 2000 MANATDAN 2200 MANATA...

Vətən Müharibəsi qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 2000 manatdan 2200 manata, Azərbaycanın Milli qəhrəmanlarına Prezidentin aylıq təqaüdünün 1800 manatdan 2000 manata, Prezidentin fərdi təqaüdünün 1500 manatdan 1700 manata, uşağın anadan olmasına görə və dəfn üçün birdəfəlik müavinətlərin 500 manatdan 600 manata çatdırılması təmin edilir. Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət 0-6 yaşarası uşaq üçün 395 manatdan 500 manata, 7-13 yaşarası uşaq üçün 415 manatdan 600 manata, 14-18 yaşarası uşaq üçün 435 manatdan 650 manata, əlilliyi olan şəxslərə müavinət orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) 270 manatdan 300 manata, 61-80 faiz pozulmasına görə (II dərəcə) 220 manatdan 250 manata, 31-60 faiz pozulmasına görə (III dərəcə) 150 manatdan 180 manata çatdırılır.



Rəşad Mustafayev

## Bu artımdan daha kimlər yararlana biləcəklər?

Yeni Fərmanda, həmçinin ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdünün 300 manatdan 350 manata, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdünün 200 manatdan 250 manata çatdırılması nəzərdə tutulub.

Eyni zamanda, övladlığa götürülən hər uşağa görə aylıq müavinət 200 manatdan 240 manata, ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) 120 manatdan 140 manata, bir yaşınadək uşağı olan aztəminatlı (ünvanlı yardım alan) ailələrə aylıq müavinət (hər uşağa görə) 100 manatdan 140 manata, beşdən çox uşağı olan qadınlara aylıq müavinət (hər uşağa görə) 105 manatdan 140 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) 120 manatdan 140 manata, valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət 120 manatdan 140 manata çatdırılır.

### FƏXRİ ADLARI OLANLAR

Prezidentin aylıq təqaüdü də gələn ayın əvvəlindən 100 manatdan 120 manata, "Xalq yazıçısı", "Xalq şairi", "Xalq artisti" və "Xalq rəssamı" fəxri adlarına görə təqaüd 200 manatdan 300 manata, "Əməkdar elm xadimi", "Əməkdar incəsənət xadimi", "Əməkdar artist", "Əməkdar rəssam", "Əməkdar mədəniyyət işçisi", "Əməkdar müəllim", "Əməkdar həkim", "Əməkdar memar", "Əməkdar bədən tərbiyəsi və idman xadimi", "Əməkdar dövlət qulluqçusu", "Əməkdar jurnalist", "Əməkdar mühəndis", "Əməkdar hüquqşünas", "Əməkdar kənd təsərrüfatı işçisi", "Əməkdar pilot", "Əməkdar tibb işçisi" fəxri adlarına görə təqaüd 150 manatdan 200 manata qaldırılıb.

### BEŞ SOSİAL İSLAHAT PAKETİ

Qeyd edək ki, dövlət başçısının fərman və sərəncamları ilə 2018-2025-ci illərdə dörd milyondan çox vətəndaşı əhatə edən beş sosial islahat paketi icra olunub. Bu islahatlar üzrə ayrılan illik əlavə vəsait 7,6 milyard manat təşkil edir. Ümumilikdə, bu ilin əvvəlindən icrasına başlanılan sosial islahat paketi 3 milyon insanı əhatə edir və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

Bundan əlavə, 2018-2025-ci illərdə minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2 dəfə, minimum pensiya 3 dəfə, orta aylıq pensiya 2,6 dəfə artırılıb. Bu il yanvarın 1-dən pensiyalar orta aylıq nominal əməkhaqqının artımına uyğun olaraq 8,1 faiz indeksləşdirilib.





# SOCAR SEFE şirkəti ilə müqavilə imzalayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Almaniyanın SEFE (Securing Energy for Europe) dövlət enerji şirkəti arasında təbii qaz alışı üzrə on illik müqavilə imzalanıb. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

Bildirilib ki, sənədə əsasən, qaz həcmləri SOCAR tərəfindən Avropada SEFE-yə təchiz ediləcək.

İllik tədarük həcmi mərhələli şəkildə artırılaraq, 15 TWh-a (terevatt–saat), yəni təxminən 1,5 milyard kubmetrə (bcm) çatdırılacaq. Bu əməkdaşlıq hasilat və infrastruktur, o cümlədən qaz kompressorları sahəsində investisiyaları dəstəkləməklə, Avropaya daha çox boru xətti qazının çatdırılmasını təmin edəcək və qitənin enerji təhlükəsizliyinə töhfə verəcək.

SEFE-nin baş icraçı direktoru Egbert Laege deyib: "Bu uzunmüddətli müqavilə Almaniya ilə Azərbaycan arasında mövcud olan güclü münasibətlərin bariz nümunəsidir. Bu tərəfdaşlıq sayəsində Avropaya əhəmiyyətli həcmdə təbii qaz çatdırmaq üçün yeni bir marşrut formalaşdırılır, bu isə bizim portfelimizi şaxələndirməyə və müştərilərimizin enerji təchizatının təhlükəsizliyini artırmağa xidmət edir".

SOCAR-ın prezidenti Rövşən Nəcəf deyib: "Bu razılaşma SOCAR-ın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətindəki fəaliyyətində növbəti önəmli mərhələdir. SEFE-yə etibarlı və iri həcmdə təbii qaz təchiz etməklə biz Azərbaycan ilə Almaniya arasında mövcud tərəfdaşlığı daha da möhkəmləndiririk, Avropanın enerji şaxələndirməsi və dayanıqlı inkişaf hədəflərinə töhfə veririk. SOCAR bundan sonra da infrastruktur və hasilat üzrə layihələrə sərmayə qoyaraq tərəfdaşlarımız üçün təhlükəsiz və fasiləsiz enerji təchizatının təmin olunmasını davam etdirəcək".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1238
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# YÜZ FAİZ QALXAN PARKİNQ QİYMƏTLƏRİ

**Bəzi mollarda parkinq qiymətləri yüz faiz artırılıb. Müvafiq qurum həmin obyektlərin şəxsi mülkiyyət olduğunu əsas gətirir, ekspertlər isə sui-istifadə hallarına yol verildiyi qənaətindədirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Foto: Sabir Məmmədov - Global Photostock

Bakıda bir sıra mollarda parklanma qiyməti bahalaşıb. Özü də yüz faizlik artım qeydə alınıb. Hazırda molların parkinqində yeni parklanma qiymətləri belədir: 0-1 saat 2 AZN; 1-2 saat 3 AZN; 2-3 saat 6 AZN; 3 -5 saat 8 AZN; 5-7 saat 12 AZN; 7-24 saat 20 AZN. Yüz faizlik qiymət artımı mollara şəxsi avtomobilləri ilə gələn müştərilər, burada fəaliyyət göstərən sahibkarlar və digər işçilər tərəfindən narazılıqla qarşılanır.

Məsələyə münasibət bildirən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) açıqlamasında vurğulanıb ki, bu kimi iaşə obyektlərinin parklanma ərazisi mülkiyyətçiyə aiddir. Bu səbəbdən mollardakı parkinq zonasındakı qiymətlərə nəzarət mümkün deyil.

**“QİYMƏT ARTIMININ İQTİSADİ ƏSASI YOXDUR”**

İqtisadçı Altay İsmayılovun sözlərinə görə, qeyd olunan iaşə obyektlərinin yeraltı parklanmasında yüz faizlik qiymət artımının heç bir iqtisadi əsası yoxdur: “Hansı dəyişikliklər qeydə alınıb ki, onlar qiymətləri heç bir səbəb olmadan bu qədər yüksəltmək qərarı veriblər? Həmin yerlərin əməliyyat xərcləri artıb, yoxsa işçilərinin əməkhaqlarında artım olub, kommunal xidmətlərin qiyməti yüksəlibmi? Yaxud belə bir qiymət artımı üçün ölkədə yüz faizə yaxınlaşan inflyasiya olmalıdır ki, bunu kompensasiya etmək üçün bu addımı atmış olsunlar. Əhalinin gəlirlərində də ciddi artım müşahidə edilməlidir ki, qiymət artımını başa düşə bilək. Həmin obyektlər belə addım atdıqda, bunu əsaslandırmalıdırlar”.

İqtisadçı bildirdi ki, həmin obyektlər qiymət artımından öncə vətəndaşları məlumatlandırmalı idilər: “Artımı izah edib, əsaslandırmaq lazım idi. Belə etsəydilər məlum narazılıqlar da meydana gəlməzdi. Vətəndaşlar bilərdilər ki, bu obyektlər məcburiyyətdən bu addımı atmalı olublar”.

## “Alternativlər mövcud deyil”

A.İsmayılovun fikrincə, bu qərar həmin obyektlərə gələn vətəndaşların sayına təsir edə bilər: “Ölkəmizdə bir çox iri marketlər mövcuddur. Hansı ki, əksəriyyətinin ətrafında, önündə parkinq yerləri var. Həmin ərazidə vətəndaşlar pulsuz şəkildə maşın saxlaya bilirlər. Pulsuz olmasının əsas səbəbi də vətəndaşları həmin obyektlərə daxil olmağa təşviq etməkdir. Mollarda da parkinqə daxil olan insanlar, istənilən halda oranın xidmətlərindən faydalanırlar. Yəni ya mağazalardan alış-veriş edirlər, yaxud restoranda əyləşir, əyləncə məkanlarında əylənirlər. Hər bir halda həmin obyektlərə fayda vermiş, gəlir gətirmiş olurlar. Həmin ödənişlərlə mollar xərclərini qarşılayır. Müştərilər nə qədər çox gələrsə, o qədər də kirayələnən yerlərin ödənişi artır”.

İqtisadçının sözlərinə görə, mollara gələn insanların maşınlarını saxlaması üçün elə çox alternativi də mövcud deyil: “Çünki yol kənarlarında salınan parkinq yerləri kifayət etmir. Haradasa uzaqda saxlayıb moldan alış-veriş etmək də vətəndaşa sərfəli deyil. Vətəndaş alış-veriş üçün həmin obyekti seçirsə, əvəzində onu rahatlığı üçün parkinqlə təmin etmək lazımdır. Bu şəkildə qiymət artımı ilə təmin edildikdə vətəndaşların büdcəsinə ciddi şəkildə təsir edir”.

A.İsmayılovun fikrincə, əlaqədar qurumların məsələyə müdaxilə etməsi mümkündür. Çünki bir çox hallarda süni qiymət artımı olduğu zaman qiymətlərə müdaxilə edə bilirlər.

## “Fürsətdən istifadə edərək qiyməti qaldırırlar”




Foto: Sabir Məmmədov - Global Photostock

Nəqliyyat eksperti Adil Nəbiyev isə düşünür ki, mollar dövlət obyekti olmadığından istədikləri qiyməti tətbiq edə bilərlər: “Amma təbii ki, son zamanlar bir çox mollarda qiymətlərin bu cür süni şəkildə qaldırılması vətəndaşları narahat edir. Çox təəssüf ki, parkinq də həmin iaşə obyektlərinin şəxsi ərazisi hesab olunur. Görürlər ki, vətəndaşlar arasında da tələbat var, maşınlar çox gəlir, fürsətdən istifadə edərək qiymətləri qaldırırlar”.

A.Nəbiyevin fikrincə, qeyri-iş günləri, həmçinin bayram günlərində ödənişsiz parkinq tətbiqi vətəndaşlar üçün daha sərfəli olar: “Çünki qanunda da bayram günlərində güzəşt olunması qeyd olunub. Belə olarsa, vətəndaşlar arasında narazılıq az da olsa, səngiyər”.

**“VƏTƏNDAŞIN ŞİKAYƏT HÜQUQU VAR”**

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun fikrincə, qaydalar hər kəs üçün eyni olmalıdır: “Qaraj olmayan özəl parklanma yerləri də dövlətin parklanma ilə bağlı təyin etdiyi qaydalar çərçivəsində fəaliyyət göstərməlidirlər. Qiymətlər də dövlətə məxsus olan parklanma yerlərində tətbiq olunan qiymətlərdən dəfələrlə yüksək olmamalıdır. Həmçinin, qiymətlər vətəndaşlarımız üçün əlçatan həddə təyin edilməlidir. İstirahətə gələn insanların avtomobillərini gün boyu orada saxlamasına şərait yaradılmalıdır”.

E.Cəfərov bildirdi ki, qiymətlərin yüksək olmasından narazı vətəndaşların hüququ var ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciət etsinlər və şikayətlərini bildirsinlər.

HƏDƏF SÜRƏTİ İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏKİ SƏVİYYƏYƏ ÇATDIRMAQDIR

# İNTERNETİMİZ DAHA SÜRƏTLİ OLACAQ

Hazırda vətəndaşların istifadə etdikləri dördüncü, beşinci və altıncı nəsil modem və routerlər də sürət artımını dəstəkləyir. Belə ki, "Wi-Fi 4", "Wi-Fi 5" və "Wi-Fi 6" adlandırdığımız həmin cihazlar müvafiq olaraq 600 Mbit/s, 3,5 Gbit/s və 9,6 Gbit/s sürəti ötürmə imkanına malikdir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



"Wi-Fi 4", "Wi-Fi 5" və "Wi-Fi 6" ...

"Azərbaycanda internetin sürəti inkişaf etmiş ölkələrdəki sürət səviyyəsinə çatdırılacaq". Bu sözləri İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) İdarə heyətinin sədri Nail Mərdanov internet telekommunikasiya xidməti göstərən operator və provayderlərlə keçirilən görüşdə deyib. Onun sözlərinə görə, yenilənmiş infrastruktur, müştəri təcrübələri, latent tələb və digər araşdırmalar göstərir ki, internet sürətinin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması üçün operator və provayderlərimiz artıq 150-200 Mbit/s-dən yuxarı internet sürət paketləri təqdim etməlidirlər. Ölkədə internetdən istifadə sürətinin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması üçün yüksəksürətli xidmət təkliflərinin olması zəruridir.

### "2,2 MİLYON SABİT GENİŞZOLAQLI İNTERNET ABUNƏÇİSİ VAR"

Nail Mərdanov əlavə edib ki, hazırda ölkəmizdə 2,2 milyon sabit genişzolaqlı internet abunəçisi mövcuddur. Onlardan da 1,7 milyonu, yaxud 78%-i GPON texnologiyası istifadə edir. Bu texnologiya üzərindən 1 Gbit/s internet sürətinin təqdim olunması mümkündür. Hazırda 2,9 milyon ev təsərrüfatının genişzolaqlı internetə çıxış imkanı təmin olunub.

Maraqlıdır, bu hədəf nə dərəcədə realdır? İnternetin sürətinin inkişaf etmiş ölkələrdəki səviyyəyə çatdırılması üçün hansı addımlar atılmalıdır?

### "HƏDƏF İNDİKATORLARI OLARAQ MÜƏYYƏN EDİLİB"

İKTA-dan "Kaspi" qəzetinə verilən məlumata görə, son illər infrastrukturun formalaşdırılması, xidmət keyfiyyətinin artırılması istiqamətində atılan addımlar ölkədə internetin sürətinin artırılmasına imkan verir: "RİNN tərəfindən uğurla həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi çərçivəsində internet telekommunikasiya infrastrukturu ən müasir formada yenilənib və ən ucqarlarda yaşayan əhalinin belə yüksəksürətli internetə əlçatanlığı artıb. Hazırda 2,9 milyon ev təsərrüfatının genişzolaqlı internetə çıxış imkanı təmin olunub. İKTA tərəfindən aparılmış təhlillər onu göstərir ki, mövcud internet telekommunikasiya şəbəkəsi Azərbaycanda istehlakçılara daha yüksəksürətli internet xidmətləri təklif etməyə imkan verir. Həmçinin Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmləndirilməsi baxımından sürətin artırılması xüsusi əhəmiyyət kəsb edir".

Qurumdan bildirilir ki, operator və provayderlərə istehlakçılara minimum 150 Mbit/s-dən başlamaqla 1 Gbit/s və daha yüksək internet sürəti də daxil olmaqla müxtəlif sürət paketlərini təklif etmək tövsiyə olunur: "Bu baxımdan "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan prioritetlərin həyata keçirilməsi nəticəsində ölkəmizdə sabit genişzolaqlı şəbəkədə orta internet sürətinin 2025-ci ildə 50 Mbit/s-yə, 2025-ci ildən sonra isə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasının hədəf indikatorları olaraq müəyyən edilib".



Nail Mərdanov

İKTA-nın məlumatına görə, hazırda vətəndaşların istifadə etdikləri dördüncü, beşinci və altıncı nəsil modem və routerlər də sürət artımını dəstəkləyir: "Belə ki, "Wi-Fi 4", "Wi-Fi 5" və "Wi-Fi 6" adlandırdığımız həmin cihazlar müvafiq olaraq 600 Mbit/s, 3,5 Gbit/s və 9,6 Gbit/s sürəti ötürmə imkanına malikdir".

### "MÜHÜM MƏRHƏLƏ ARXADA QALIB"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov deyir ki, bu hədəfə çatmaq üçün provayderlərin xidmət keyfiyyətinə nəzarət gücləndirilməli, onların məsuliyyətli fəaliyyəti təşviq olunmalıdır: "Azərbaycanda internetin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması prosesi artıq yalnız infrastrukturun qurulması ilə deyil, bu infrastrukturun effektiv və səmərəli istifadəsi ilə bağlı məsələlərlə müəyyən olunur. Ölkə üzrə ucdan-uca fiber-optik şəbəkənin qurulması ilə mühüm mərhələ arxada qalıb. İndi əsas diqqət bu texniki potensialın tam reallaşdırılması və istifadəçilərə sabit, keyfiyyətli internet xidmətlərinin göstərilməsinə yönəlməlidir".

E.Abbasovun sözlərinə görə, rəqabət mühiti genişlənməli, tarif siyasəti şəffaf tənzimlənməli və xidmət göstəricilərinə dair ictimai monitorinqlər təmin edilməlidir. Bu yanaşma həm real sürət, həm də əlaqənin sabitliyi baxımından istifadəçi gözləntilərinin qarşılanmasına şərait yaradacaq. İnternet xidmətlərinin regionlarda da şəhər səviyyəsində əlçatanlığı mühüm prioritetlərdən biri olaraq qalmalıdır.

### BEYNƏLXALQ TRAFİK KANALLARI ŞAXƏLƏNDİRİLMƏLİDİR

AİKTSA sədri vurğulayır ki, xarici resurslara çıxışın optimallaşdırılması məqsədilə Transxəzər fiber-optik layihəsi kimi təşəbbüslər önə çəkilməlidir: "Digər strateji istiqamət isə beynəlxalq trafik kanallarının şaxələndirilməsi və Azərbaycanın regional trafik mübadiləsi mərkəzinə çevrilməsi ilə bağlıdır. Bu yanaşma ölkəmizin yalnız istifadəçi bazasına xidmət göstərən deyil, həm də regionda rəqəmsal infrastrukturun mərkəzi rolunu oynayan bir ölkə kimi mövqeyini gücləndirəcək".



Elvin Abbasov

# ŞAFTALIMIZ SƏRHƏDLƏRİ AŞIR



**Azərbaycan şaftalısı Rusiya və Yaxın Şərq bazarlarında rəqabətə davamlı mövqedədir. Mövsümün erkən başlaması və məhsulun yüksək şəkərliliyi ixraca müsbət təsir edir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Beynəlxalq Ticarət Mərkəzinin məlumatlarına görə, 2024-cü ildə Azərbaycan şaftalı ixracı üzrə dünyada doqquzuncu yerdə qərarlaşıb. Bu barədə İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) məlumat yayıb. Hesabat ilində Azərbaycan 68,6 milyon ABŞ dolları dəyərində təzə şaftalı ixrac edib. Bu, 2023-cü illə müqayisədə 33 faiz çoxdur.

### BAZARLARA DAHA ERKƏN ÇIXIR

Lənkəran Dövlət Universitetinin aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, ölkəmiz şaftalı istehsalı üçün olduqca əlverişlidir: "Azərbaycanın 2024-cü ildə 68,6 milyon dollar dəyərində şaftalı ixrac etməsi və dünyada doqquzuncu yerdə qərarlaşması böyük uğurdur. Bu, bir neçə amil ilə izah oluna bilər. İqlim şəraitini xüsusi qeyd etmək lazımdır. Xüsusilə Lənkəran, Gəncə-Qazax, Quba-Xaçmaz, Şəki-Zaqatala bölgələri şaftalı üçün çox əlverişlidir. Növbəti faktor kimi, mövsümi üstünlüyü qeyd edə bilərik. Hansı ki, Azərbaycan şaftalısı bazara erkən çıxır və bu, onu regional bazarlarda Rusiya, Orta Asiya, Yaxın Şərqdə rəqabətə davamlı edir. Əmək resursları və kiçik təsərrüfatların olması, əl əməyinin yüksək olması bəzi keyfiyyət göstəricilərinin qorunmasına imkan verir".

N.Əzizlinin fikrincə, Azərbaycan şaftalısı bir sıra üstünlüklərə malikdir: "Öncə təbii dadı və ətri. Azot və suya qənaətlə becərilən şaftalıların şəkərlilik faizi yüksək olur. Şaftalımızın erkən yetişmə dövrü - may-iyun aylarında bazara çıxması əsasən Rusiyada bazar mövsümünü açır. Ekoloji təmiz istehsal metodları - orqanik və yarım-orqanik üsullarla istehsal potensialı var. Rusiya ilə coğrafi yaxınlıq, nəqliyyat xərclərinin az olması məhsulu rəqabətə davamlı edir. Bu göstəriciləri nəzərə alaraq, ixracın daha da artması mümkündür. Xüsusilə yeni bazarların araşdırılması və məhsulun dəyər zəncirinin (emal, qablaşdırma və logistika) inkişaf etdirilməsi buna əsas verir".




## KOORDİNASİYA GÜCLƏNDİRİLMƏLİDİR

Ekspert bildirdi ki, ixracın artırılması istiqamətində strateji addımlar kimi bir sıra qaydalara əməl olunmalıdır: "Məhsulun sertifikatlaşdırılması və keyfiyyət standartlarının tətbiqi, qida təhlükəsizliyi və GLOBAL G.A.P. sertifikatları ixrac üçün vacib hesab olunur. Qablaşdırma və soyuducu zəncirlərinin qurulması, məhsulun təzə qalması üçün soyuq zəncir logistikasının genişləndirilməsi kimi addımlar mühümdür. Logistika və ticarət əlaqələrinin inkişafı yeni marşrutlar (məs. BƏƏ, Səudiyyə Ərəbistanı, Hindistan) üçün dəmir yolu və hava nəqliyyatı imkanlarının genişləndirilməsi ixracın artırılmasında xüsusi yer tutur. Kooperativləşmə və birgə ixrac mexanizmləri, fermerlər üçün təlimlərin keçirilməsi, əkinçilik texnologiyaları, zərərvericilərlə mübarizə üzrə texniki təlimlər də bu istiqamətdə mühüm rola malikdir".

Mütəxəssis bildirir ki, şaftalı ixracındakı artımın davamlı olması üçün, dövlət qurumları və ixracatçılar arasında koordinasiya gücləndirilməli, rəqabət üstünlükləri qorunmalıdır".

### FERMERLƏRİN ÜZLƏŞDİKLƏRİ ÇƏTİNLİKLƏR

N.Əzizli fermerlərin yaşadığı çətinliklərə də toxundu: "Bəzi fermerlərin əsas problemi məhsullarının standartlara cavab verməməsidir. Bəzən fermerlərdə keyfiyyət, ölçü, saxlanma şəraiti kimi göstəricilər aşağı olur. Onların maliyyə mənbələrinə çıxışı məhduddur. Qablaşdırma, soyuducu anbar və nəqliyyat üçün ilkin kapital çatışmazlığı kimi faktorları qeyd etmək olar. Bazarla əlaqənin zəifliyi xarici alıcılarla birbaşa əlaqə qurmaqda çətinliklər törədir. Rəsmiləşdirmə və gömrük prosesləri, bəzi hallarda ixrac prosedurları vaxt aparır. Logistika imkanlarının məhdudluğu, soyuducu yük maşınlarının və saxlanma yerlərinin azlığı məhsulun xarab olması ilə nəticələnir".



## İXRACIN ARTMASI YERLİ BAZARA DA TƏSİR EDİR

Ekspertin sözlərinə görə, ixracın kütləvi olması yerli bazara təsir edə bilər. İkitərəfli təsir mümkündür: "Müsbət təsirləri odur ki, yerli istehsalçının gəliri artır, daha çox sərmayə yatırmağa motivasiya yaranır. Rəqabət artdıqca məhsulun keyfiyyəti də yüksəlir. Mənfi təsirlər isə budur ki, yerli bazarda məhsul azala, qiymət artımı baş verə bilər. Əgər keyfiyyətli məhsul yalnız ixraca yönəlsə, yerli bazarda daha zəif keyfiyyətli məhsul qalır".

### "BAĞLARIN YAŞI ÇOXALDIQCA, MƏHSULDARLIĞI ARTACAQ"

İqtisadçı Akif Nəsirli isə düşünür ki, şaftalı istehsalımız gələcək illərdə daha da yüksələcək: "Son illər Azərbaycanda şaftalı bağlarının salınması istiqamətində ciddi addımlar atılıb. Şaftalı bağlarının sahəsi bir neçə dəfə artıb. Həm şimal bölgələrimizdə, həm də aran zonasında şaftalı bağlarının sahəsi genişlənməkdədir. O səbəbdən də ölkənin daxili bazarında mövsüm dövründə kifayət qədər şaftalı olur. Həm də ixracımız ilbəil artır. Hələlik, şaftalı bağlarımızın əksəriyyəti cavandır. Tam gücü ilə məhsul vermir. Gələcəkdə bu bağlardan daha çox məhsul götürə biləcəyik. Bağların yaşı artdıqca, məhsuldarlığı da yüksələcək".

A.Nəsirlinin fikrincə, yenə də fermerlərə dəstəyi gücləndirməliyik: "Bağlara subsidiyalar verilir. Miqdar hektarda ağacın sayına görə dəyişir. Subsidiyanın yalnız 25 faizinin nağdlaşdırılması, 75 faizinə vasitələr alınması qaydası dəyişməlidir. Fermer subsidiyanı tam həcmdə nağdlaşdırmaq imkanına malik olmalıdır".

### "MƏHSULLARIMIZIN TƏBİİ VƏ KEYFİYYƏTLİ OLMASINA DİQQƏT YETİRMƏLİYİK"

İqtisadçının sözlərinə görə, məhsulumuzun keyfiyyətini artıra bilsək, ixrac ölkələrinin sayını daha da çoxaldarıq: "Fermerlər şaftalı ixrac edərkən qida təhlükəsizliyinə dair sertifikat almalıdır. Əgər məhsul keyfiyyətli olmasa və onu digər ölkədə saxlasalar, fermer daha çox ziyana düşür. O səbəbdən məhsullarımızın təbii və keyfiyyətli olmasına diqqət yetirməliyik. Cənubi Asiyada da məhsullarımıza ciddi tələbat var. Amma onların standartları sərtdir".



# KƏRƏ YAĞININ BAHALAŞMASI DAVAM EDƏCƏK

Kərə yağı sürətlə bahalaşır. Ekspertlər bu tendensiyanın davamlı olacağı qənaətindədirlər. Çünki ölkədə yerli yağ istehsalı azalır. Süd istehsalının yetərli olmaması kərə yağının qiymətinin artmasına birbaşa təsir göstərir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Kərə yağının qiymətində son dövrlərdə müşahidə olunan kəskin artım geniş müzakirələrə səbəb olub. 2025-ci ilin ilk dörd ayında Azərbaycana idxal edilən kərə yağının orta qiyməti 35%-dən çox artıb. Dövlət Gömrük Komitəsinin hesabatına görə, sözügedən dövrdə Azərbaycana 65 milyon 474 min ABŞ dolları dəyərində 9 min 323.5 ton kərə yağı idxal edilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər baxımından 24.5 milyon ABŞ dolları, həcm baxımından isə 1 387 ton artıb.

Bu il yanvar-aprel aylarında idxal edilən kərə yağının bir kiloqramının orta qiyməti əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 35.2% artaraq 11.9 manata bərabər olub. Bu dövrdə Azərbaycanda idxal kərə yağının orta satış qiyməti 23.59 manat, yerli kərə yağının orta satış qiyməti 20.90 manat təşkil edib.

Maraqlıdır, qiymət artımının səbəbləri nələrdir və gələcəkdə bu artımın davam edəcəyi proqnozlaşdırılırmı?

### İDXALDAN ASILILIQ

İqtisadçı-ekspert Pərviz Heydərov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, qiymət artımının əsas səbəbi idxaldan asılılıq və kərə yağına olan tələbatdır: "Statistika göstərir ki, son illərdə Azərbaycana ərzaq məhsullarının, o cümlədən kərə yağının idxalı əhəmiyyətli dərəcədə artıb. Bu asılılıq daha da güclənməkdədir. Nəticədə, idxalçı ölkələrdə qiymət dəyişiklikləri Azərbaycanın daxili bazarında da eyni şəkildə əks olunur və bu, qiymət artımının əsas səbəblərindən biri hesab edilir".


Pərviz Heydərov

### HƏM ƏT, HƏM DƏ SÜD MƏHSULLARI

Mütəxəssis bildirir ki, kərə yağı ilə bağlı idxaldan asılı olmağımızın səbəbi ölkədə heyvandarlıq sahəsindəki geriləmə ilə bağlıdır: "Azərbaycanda süd istehsalının yetərli olmaması kərə yağının qiymətinin artmasına birbaşa təsir göstərir. Bu vəziyyətin qarşısını almaq və qiymət artımını azaltmaq üçün ölkədə süd istehsalının artırılması və yerli istehsala dəstək verilməsi vacibdir. Yalnız belə olan halda kərə yağı və digər süd məhsullarının qiymətinin stabil qalması təmin oluna bilər. Son illərdə bu sahədə davam edən problemlər, xüsusilə mal-qara sayının azalması və yem bazasının zəifləməsi süd istehsalına mənfi təsir göstərir. Əvvəllər ət məhsulları ilə özünü yüksək səviyyədə təmin edən Azərbaycan, hazırda bu göstəricidə də ciddi geriləmə yaşayır. Bu, heyvandarlıq sektorunun əvvəlki gücünü itirdiyini göstərir. Pambıqçılığın inkişafı məqsədilə həyata keçirilən siyasət də heyvandarlığa zərbə vurub. Örüş sahələrinin azalması, torpaq qiymətlərinin artması və fərdi təsərrüfatların fəaliyyət göstərməsi üçün şəraitin çətinləşməsi süd istehsalını azaldan əsas amillərdəndir. Nəticədə həm ət, həm də süd məhsullarında idxaldan asılılıq artır, qiymətlər yüksəlir. Bu vəziyyətin dəyişməsi üçün heyvandarlığa dəstək verən sistemli və dayanıqlı islahatlara ehtiyac var".



## "ƏGƏR BU SAHƏDƏ İNKİŞAF TƏMİN EDİLMƏSƏ..."

P.Heydərov deyir ki, daxili bazarın indiki vəziyyətində tənzimləmələr effektiv ola bilməz: "Əgər bazar bir məhsulla bağlı idxaldan asılıdırsa, həmin məhsul ərzaq bazarında əsas tələbat yaradırsa, bu halda yumşaq gömrük rüsumu siyasətinin tətbiqi qaçılmazdır. Əks halda həmin məhsul daha da baha olacaq ki, bu da arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən, xüsusilə kərə yağının yerli istehsalında da artıma nail olmaq vacibdir. Əgər bu sahədə inkişaf təmin edilməsə, gələcəkdə qiymət artımının davam etməsi qaçılmaz olacaq".

### DÜNYADA YAĞA TƏLƏBAT ARTIB

İqtisadçı-ekspert Xalid Kərimli də təsdiqləyir ki, kərə yağının bahalaşmasının əsas səbəbi dünyanın müxtəlif bölgələrində bu məhsula tələbin çoxalması, nəticədə idxal qiymətlərinin artmasıdır: "Azərbaycan kərə yağının xalis idxalçısıdır. Həm kərə yağını, həm də duru yağı idxal edir. Son bir neçə ayda dünya bazarında kərə yağına olan tələbatın artması, Okeaniya, Qərbi Avropa, MDB ölkələri və Türkiyədə istehsal olunan kərə yağlarının bahalaşması ölkəmizdə də ciddi qiymət artımına səbəb olub".


Xalid Kərimli

## SAHİBKARLAR BAHA ALIB, BAHA DA SATIRLAR

İqtisadçı deyir ki, dünya bazarında qiymət artımı qlobal tələbin yüksəlməsi ilə əlaqəlidir: "Sahibkarlar idxal qiymətinin artması nəticəsində baha alıb, baha da satmağa məcbur olurlar. Yəni bazar tələbləri və idxal qiymətləri birbaşa məhsulun bahalaşmasına təsir göstərir. Ölkə daxilində kərə yağına olan tələbat stabil qalsa da, idxal qiymətlərinin dəyişməsi nəticəsində yerli bazarlarda da qiymətlər tez-tez dəyişir".

### YERLİ İSTEHSAL ARTSA BELƏ...

Mütəxəssis vurğulayır ki, yerli istehsalın zəif inkişaf etməsinin əsas səbəbi heyvandarlığın kifayət qədər inkişaf etməməsidir: "Bu da əsasən kənd əhalisinin mal-heyvan saxlamağa maraqsız olması ilə əlaqəlidir. İnsanlar kənddə oturub mal-heyvan saxlamaqdan çox, şəhərdə, xüsusilə Bakıda rahat şəraitdə işləməyi üstün tuturlar. Kənd təsərrüfatı ilə bağlı çətinliklər - peyin, palçıq, dağ suyu ilə mübarizə, əkin sahələrinin məhdudluğu və otlaq yerlərinin azalması heyvandarlıq sahəsindəki əsas problemlərdəndir. Ərazilərin hasarlanması, preslərin bahalığı da bu vəziyyətə təsir edir. Yerli istehsal olsa belə, bu, ucuz olmayacaq".

### QİYMƏTLƏR ARTMAQDA DAVAM EDƏCƏK?

Gələcəkdə qiymətlərin artan templə davam etməsi məsələsinə gəldikdə isə, X.Kərimli bildirir ki, dünya bazarındakı idxal qiymətləri də bu məsələdə əsas rol oynayır: "Hazırda dünya bazarında qiymətlər bir qədər stabilləşsə də, yaxın aylarda kəskin qiymət dalğalanmalarının olması gözlənilir. Bu vəziyyət də yerli istehsalın və qiymətlərin formalaşmasında təsirli amil olaraq qalır".

# “İSPANİYANIN ÜRƏYİ”NDƏN REPORTAJ

Sevilya zərif binaları, daş döşənmiş küçələri, köhnə küçə lampaları, at arabaları, flamenkonun qızğın ritmləri və valehedici gitara səsləri ilə adamı ovsunlayır. Şəhər portağal, xurma ağacları, ərəb həyətləri və rəngli qapıları ilə tanınır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az
















Sevilya Əndəlusun paytaxtı olmaqla yanaşı, canlı tarixə, müxtəlif mədəniyyətlərin, dinlərin qarışığına və qədim ənənələrə malikdir. Üç min illik tarixi olan, romalıların, ərəblərin, normanların və başqalarının sahib olmaq uğrunda ölüm-dirim savaşı apardığı bir şəhərdir Sevilya.

Bu gün bu narıncı şəhərə gələn hər bir insan ürəyində buradan kiçik bir parça götürür. Turistləri incəsənət, tarix, əyləncə və zəngin mədəniyyət qarşılayır. Sevilya keçmişin heyrətamiz görməli yerləri və qalıqları, zərif memarlığı və sehrli atmosferi ilə öyünən İspaniyanın ən füsunkar şəhərlərindən biridir. Sevilyaya “İspaniyanın ürəyi” də deyirlər: İspaniyanın mədəni və tarixi ürəyi. Şəhər ilk baxışdan ovsunlayır. Sevilya turistləri həm də Avropada ən təhlükəsiz şəhərlərdən biri olması ilə cəlb edir. Şəhər bütün dünyada Pasxa bayramı tədbirləri və aprel yarmarkası ilə məşhurdur. Səfərim aprel ayına təsadüf etdiyindən dini bayramın və yarmarkanın hazırlıqlarını müşahidə etmək fürsəti qazandım...

## “Ortasından çay axan şəhərlər gözəl olur”

Şəhər turu

Sevilyanın necə inkişaf etdiyi ilə bağlı tarixi səyahətə aparır. Triunfo meydanında - şəhərin mərkəzində UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş üç tarixi bina yerləşir. Dünyanın ən qədim saraylarından olan Kral Alkazar Sarayı, Hindistan Arxivi və Giralda Qülləsi olan Katedral - bütün Sevilyanı görə biləcəyiniz 90 metr hündürlüyündə zəng qülləsi...

“Ortasından çay axan şəhərlər gözəl olur” deyimi təsadüfi deyil: yamyaşıl Qvadalkivir çayı şəhəri iki hissəyə - tarixi mərkəzə və düzənlik Trianaya ayırıb.

Əndəlüsün füsunkar paytaxtında Şərq və Qərb mədəniyyətləri qəribə bir şəkildə toqquşur və qarışır. Şəhərin əsas cazibəsi orta əsr “Barrio Santa Cruz”un kiçik həyətlərində və dolama xiyabanlarında gizlənir.

Sevilya zərif binaları, daş döşənmiş küçələri, köhnə küçə lampaları, at arabaları, flamenkonun qızğın ritmləri və valehedici gitara səsləri ilə adamı ovsunlayır. Şəhər portağal, xurma ağacları, ərəb həyətləri və rəngli qapıları ilə tanınır. Sevilya - ispan həyat tərzindən zövq almaq üçün mükəmməl yerdir.

Küçələrdə gitaranın valehedici səsləri eşidilir. Şəhərin müxtəlif yerlərində ekspromt flamenko rəqsini görə bilərsiniz.

### MÜSƏLMAN QALASINDAN KRAL SARAYINA

Sevilyaya səfər edənlərin görmək istədikləri ilk yer müsəlmanların tikdirdiyi, hazırda İspaniya kralının sarayı olan Alkazar sarayıdır. Bu kompleks memarlıq üslublarının heyrətamiz qarışığıdır. Saraya giriş biletləri onlayn qaydada və xeyli qabaqdan satılır, yerində bilet almaq mümkün deyil. Turistlər şəhərin düz mərkəzində yerləşən sarayı ziyarət etməklə ərəb dövründən orta əsrlərə, intibah və daha sonra barokko dövrünə qədər təkamülün şahidi olurlar. İlk dövrlərdə burada müsəlman qalası olub, sonra saraya çevrilib. Bu gün də kral ailəsi yuxarı otaqları iqamətgah kimi istifadə edir. Kral ailəsi üzvləri Sevilyaya gələndə məhz bu sarayda qalırlar.

### KOLUMBUN DƏFN OLUNDUĞU KİLSƏ

Sevilya Katedralı (Catedral de Santa María de la Sede) bir vaxtlar qədim məscidin minarəsi olan əzəmətli qülləsi ilə dünyanın ən böyük qotik kilsələrindən biridir. Kilsə məşhur səyyah Xristofor Kolumbun dəfn olunduğu yer kimi də məşhurdur. “Bu binanın tikintisinə 1400-cü ildə başlanıb. Onun mənzərəli gözəlliyi Məsihin həyatından 45 füsunkar səhnəni əks etdirən qotik oymalarla bəzədilib”, - deyə bələdçi məlumat verir: “İnşaatçılar bu kilsəni tikməyə başlayanda o qədər gözəl və əzəmətli bir şey yaratmaq istəyirdilər ki, insanlar onu uzun illər xatırlasınlar. Bu kilsəyə baxdıqda görürsən ki, onlar öz vəzifələrini uğurla yerinə yetiriblər”. Kilsəyə giriş biletinin qiyməti 13 avrodur. Hər həftə “Catedral de Sevilla” 100 pulsuz bilet təklif edir. Biletlər Katedrala və Giralda Qülləsinə giriş imkanı verir. Bu biletləri yalnız kafedralın rəsmi saytında almaq olur.

Sevilyanın başqa bir simvolik binasının - Hindistan Arxivinin mövcudluğuna görə də ispanlar Kolumba borcludurlar. Axı səyyah ömrünün sonuna qədər Asiya qitəsinə çatdığına və Hindistanı kəşf etdiyinə əmin olub. Dünyanın ən böyük taxta binası olan Metropol Parasol da qonaqları xüsusilə cəlb edir.

## İSPANLARIN QƏLBİNİ FƏTH ETMƏK

Sevilyada yerli əhali demək olar ki, ingilis dilini bilmir, ancaq bu dildə nəsə soruşanda öz dillərində həvəslə izah edirlər. Böyük mollar istisna olmaqla, küçələrdəki restoran və kafelərin çoxu xüsusi vaxtlarda açılır. Axşam saatlarında da əksəriyyəti yerli sakinlərlə dolu olur. Gündüz müəyyən saatlarda dükan və restoranların bağlı olma səbəbi isə ispanların sietası - gündüz istirahəti ilə bağlıdır. Buna “ispan yoqası” da deyirlər. Günorta istirahəti saat birdən axşam saat beşə qədər davam edir. “Bu zaman dükanlar bağlanır və ofis işçiləri nahar və günorta yatmaq üçün evə gedirlər. Siestadan sonra daha bir neçə saat işləyir, ardınca ispanlar nahar, şam yeməyi yeyirlər. Axşamlar isə bütün kafe və restoranlar “zəbt” olunur.

İspanlar çox ünsiyyətcildirlər və tanımadıqları adamlarla da söhbət etməkdən qaçmırlar. Onlar vaxtlarını şən keçirməyi xoşlayırlar. Çox səs-küylü, emosionaldırlar. Hətta onlarda belə deyim var: “Hər bir ispan uşağı həyatının ilk günlərindən səs-küyə öyrəşib və buna görə də hər yerdə - barda, restoranda və küçədəki hay-küydə yuxuya gedəcək”. Sevilyada əcnəbilərin ispan dilində danışa bilmələrinə heyranlıqlarını gizlətmirlər. İspan dilində bir söz, məsələn “hola” desəniz və yerli “Sevilya” klubuna azarkeşliyinizi bildirsəniz, onlara dünyanı bağışlayacaqsınız.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
14 İYUN ŞƏNBƏ 2025
www.kaspi.az

**Nigar Mirzəliyeva bacarıqlı futbolçu olmaqla bərabər, həm də gözəlliyi ilə diqqət çəkir. Onun sosial şəbəkə hesablarında böyük izləyici kütləsi var. Hətta o, ən gözəl futbolçu qadınlardan biri, "Yuventus"un oyunçusu Alişa Lemanla müqayisə olunur.**

# SORAĞI UZAQLARDAN GƏLƏN QIZ




Ölkəmizin yaşıl futbol meydanlarında uğurları elə də çox deyil. Yalnız son illərdə "Qarabağ" avrokuboklardakı parlaq çıxışı ilə azarkeşlərimizi sevindirir. Bəzən digər klublarımız da bir neçə mərhələ keçməyi bacarırlar, milli komandamız isə ara-sıra güclü rəqibləri büdrətməsi ilə diqqət çəkir. Ölkə xaricində çıxış edən bir neçə futbolçumuz qolları ilə azərbaycanlıların da futbol oynaya bildiyini göstərməyə çalışır. Böyük futbolda nailiyyətlərimiz təxminən elə bu çərçivə daxilindədir. Son zamanlar qadın futbolu varlığını hiss etdirməyə başlayıb. Həm millinin nəticələri, həm də bir neçə komanda üzvünün ölkə xaricində uğurlu çıxışı qızlarımızın adından bəhs etdirmələri ilə nəticələnib.

**LEGİONER HƏYATI YAŞAYAN QADIN FUTBOLÇULARIN ARASINDA ƏN UĞURLUSU**

2023-cü ildə qadın futbolçulardan ibarət milli komandamız UEFA Millətlər Liqasında B Liqasına vəsiqə qazanmaqla tarixi uğura imza atdı. Düzdür, B Liqasında, daha güclü rəqiblərlə görüşlərdə yığmamız yaxşı nəticələrinin davamını gətirə bilmədi, lakin heç bir komandaya da asanlıqla təslim olmadı. Yığma C Liqasının cari mövsümündə də ən yaxşı üçüncülərdən biri oldu. Təəssüf ki, son oyundakı uğursuzluq B Liqasına qayıtmaq üçün problem yaratdı.

Qızlarımızın milli səviyyədə özlərini göstərmələri bir çoxunun Avropa klublarının diqqətini çəkməsi ilə nəticələnib. Legioner həyatı yaşayan qadın futbolçuların arasında ən uğurlulardan biri Nigar Mirzəliyevadır. 23 yaşlı müdafiəçi Rusiyanın "Zenit" klubunda yaxşı oyunu ilə diqqət çəkir. Sorağı Sankt-Peterburqdan gələn qız bir neçə gün əvvəl "Zenit"lə Rusiya Super Kubokunun qalibi oldu. 2022-ci ildən "Zenit"in formasını geyinən Nigar komandanın aparıcı simalarından biri sayılır. Hətta tez-tez Rusiya çempionatında turun rəmzi komandasına düşür. "Zenit"lə ikinci dəfə Rusiya Superkubokunu qazanan Nigar Mirzəliyeva 2023 və 2024-cü illər mövsümlərində ölkə çempionu titulunu əldə edib. Komanda hazırda davam edən 2025-ci il mövsümündə də turnir cədvəlinə başçılıq edir.

**KİMDİR NİGAR?**

Nigar Mirzəliyeva 28 aprel 2002-ci ildə Mingəçevirdə anadan olub. O, uşaq yaşlarında doğma şəhərində futbol məşqlərinə qoşulub. 11 yaşı olarkən Nigar futbol proqramı çərçivəsində bir neçə ay İngiltərənin "Mançester Yunayted" klubunun akademiyasında təlim-məşq proqramında iştirak edib. Onun futbolçu kimi inkişafında bu təcrübənin böyük rolu olub. 2018-2019-cu ildə Balakənin "Balxurma" klubunda, bir il sonra Şəkinin "Marxal" komandasında oynayan Nigar ardınca karyerasına legioner olaraq davam edib. 2021-ci ildə Kazanın "Rubin" klubunda çıxış edib. Martın 14-də çempionatda ilk rəsmi oyununa çıxıb. Ümumilikdə, Kazan klubunda 47 dəfə liqa, bir dəfə isə kubok oyununda meydana çıxıb.

"Rubin"dəki performansı gənc oyunçunun Rusiyanın ən güclüsü "Zenit"in diqqətini çəkməsi ilə nəticələnib. 2022-ci ildə o, Sankt-Peterburq təmsilçisi ilə iki illik müqavilə imzalayıb və hələ də bu komandanın formasını geyinir.

Gənc yaşlarından milli komandalara dəvət alan mərkəz müdafiəçisi U-17 yığmamızda 13, U-19 komandasında üç matçda meydana çıxıb. 18 yaşı olarkən isə əsas komandaya dəvət alıb. Burada 23 oyun keçirən futbolçu fərqlənməyi də bacarıb. Klubunda isə o, əsas heyətin əvəzedilməz oyunçularındandır.



## Hədəf daha böyükdür

Nigar Rusiyadakı uğurlu çıxışı ilə kifayətlənmək niyyətində deyil. Gənc futbolçu gələcəkdə Avropanın daha böyük komandalarında oynamağı düşünür:

"Daha böyük liqalarda çıxış etmək əla olar. Avropanın aparıcı futbol ölkələrində oynayan Azərbaycanın ilk qadın futbolçusu olmaq istəyərəm. Bəzi klublardan təkliflər almışam. Həmçinin "Zenit" də yeni müqavilə təklif edib. Lakin hələlik düşünürəm. Avropanın güclü klublarından dəvət gəlsə, mütləq dəyərləndirəcəyəm".

Milli futbolçu uğurlarının sirri barədə də fikirlərini bildirib. O, futbola olan sevgisinin və məşqlərə ciddi yanaşmasının ən əhəmiyyətli məqam olduğunu vurğulayıb: "Futbola böyük sevgim var. Uğurlu çıxışlarımı da buna borcluyam. Fikrimcə, əgər bir işi sevərək edirsənsə, mütləq uğur qazanacaqsan. İşimi çox sevirəm, məşqlərimi ciddi edirəm. Bu da uğur əldə etməyimə kömək olur. Həm millidə, həm də klubumda bunun davamlı olması üçün lazım olan hər şeyi edəcəyəm".

## GÖZƏLLİYİ İLƏ HEYRAN EDİR



Nigar Mirzəliyeva həm də gözəlliyi ilə diqqət çəkir. Onun sosial şəbəkə hesablarında böyük izləyici kütləsi var. Eyni zamanda, yerli və xarici futbolsevərlər tez-tez futbolçumuzun gözəlliyi ilə bağlı paylaşımlar edirlər. Hətta o, ən gözəl futbolçu qadınlardan biri, "Yuventus"un oyunçusu Alişa Lemanla müqayisə olunur. Bir sözlə, Nigar Mirzəliyeva həm oyunu, həm gözəlliyi ilə qadın futbolumuzun əsas ulduzudur.

O, hələ çox gəncdir, karyerasının başlanğıcındadır. 23 yaş futbolda parlamaq üçün ideal dövrdür. Bundan sonra da Nigar məşqlərinə eyni məsuliyyətlə yanaşaraq, daha böyük uğurlar əldə etmək üçün səy göstərməlidir. Sevdiyi idman növündə daha böyük nəticələr əldə etmək üçün o, hər şeyə malikdir.